

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

03 aprel 2026-cı il, cümə
№ 055 (7122)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


# Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur

## İlham Əliyev: Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi çox önəmlidir



Bax səh. 2

## Türk birliyi: Ortaq tarixdən ortaq gələcəyə...

Bax səh. 3

## TDT-nin Bakıda keçirilən görüşü çərçivəsində birgə bəyanat qəbul edilib

Aprelin 2-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşü çərçivəsində birgə bəyanat qəbul edilib.

Bəyanatı təqdim edirik:

"Türk Dövlətləri Təşkilatının Hökumət başçıları/Vitse-prezidentinin ikinci görüşü 2026-cı il aprelin 2-də Bakıda keçirilmişdir. Görüşdə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz, Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov, Qırğız Respublikasının Nazirlər Kabinetinin sədri - Prezident Administrasiyasının rəhbəri Adılbek Kasımaliyev, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, Şimali Kipr Türk Respublikasının Baş naziri Ünal Üstel, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Nökərgulu Ataguliyev, həmçinin TDT-nin Baş katibi Kubanıçbek Ömürəliyev iştirak etmişlər.

TDT-yə üzv dövlətlərin Hökumət başçıları/Vitse-prezidenti 2025-ci il sentyabrın 18-də Bişkekdə Qırğız Respublikasının sədrliyi dövründə keçirilmiş birinci görüşün...

Bax səh. 3

## Zəngəzur dəhlizi (TRIPP) ləngiyə bilər?



Bax səh. 5

## "ING Group"un ümidverici proqnozları: "Azərbaycanın xarici iqtisadi mövqeyi çox güclüdür"

Bax səh. 4

## Növbəti qurban...

Bax səh. 5

## Açıq mesaj: seçki gərgin keçəcək...

Bax səh. 6

## Çindən Avropaya ilk dəfə

Çinin Hubey əyalətinin Uhan şəhərindən elektron avadanlıqlar, məişət texnikası və gündəlik tələbat malları ilə yüklənmiş Çin-Avropa yük qatarı Bakıya yola düşüb. Bu, Uhandan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) vasitəsi ilə Bakıya gedən ilk birbaşa Çin-Avropa yük qatarıdır. Qatar Çinin Sincan Uyğur Muxtar Rayonundakı Horqos sərhəd-keçid məntəqəsindən Qazaxıstana, ordan isə Xəzər dənizi ilə Bakıya çatacaq. Dəmir yolu və dənizi birləşdirən multimodal nəqliyyat vasitəsilə səyahətin 18 gün ərzində başa çatacağı gözlənilir.

Qlobal logistika mühitində yeni hadisə olan bu nəqliyyat daşımaçılığı ənənəvi beynəlxalq logistika kanalları ilə müqayisədə daha sərfəli və maneəsiz hesab edilir. Belə ki, bu marşrut daha aşağı geosiyasi risklər, daha güclü təchizat zənciri dayanıqlılığı və daha idarəolunan nəqliyyat əlaqələri təklif edir. Eləcə də adıçəkilən nəqliyyat xətti Hubeyin ixrac yönümlü müəssisələrinin inkişaf etməkdə olan Avrasiya bazarlarına genişlənməsi üçün yüksək səmərəli və sabit logistika arteriyası təmin edir.

Qeyd edək ki, bölgədə baş verən son geosiyasi proseslər Avropa İttifaqının (Aİ) da Orta Dəhlizə marağını artırıb. Xeyli müddətdir ki, Trans-Qazaxıstan dəhlizinə maliyyə dəstəyi...

Bax səh. 4

## Rusiya-Ukrayna müharibəsi - "Pasxa atəşkəsi" olacaqmı?



Bax səh. 6

## ABŞ NATO-nu tərk edərsə...



Bax səh. 7

# Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur

## İlham Əliyev: Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi çox önəmlidir







Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmazı, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripovu, Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenovu, Qırğız Respublikasının Nazirlər Kabinetinin Sədri Adılbek Kasımaliyevi, Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Nökərqulu Ataqulıyevi, Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üsteli və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib:

### Prezident İlham Əliyevin çıxışı

-Türk Dövlətləri Təşkilatının hökumət başçılarının toplantısı bu dəfə Bakıda keçirilir. Sizi səmimiyyətlə salamlayıram, xoş gəlmisiniz.

Əminəm ki, bu görüşün çox böyük faydası olacaq. Hər zaman olduğu kimi, bizim ölkələrimiz birlik, həmrəylik göstərəcəklər. Eyni zamanda, qarşımızda duran önəmli iqtisadi məsələlərin müzakirəsi üçün də bu görüşün çox böyük əhəmiyyəti var.

Bütövlükdə Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək. Bu, bizim xarici siyasətimizdə prioritet məsələlərdən biridir. Dəfələrlə müxtəlif kürsülərdən bəyan etmişdik ki, Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi təbii ki, çox önəmlidir.

Xarici siyasətimizdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə bizim əlaqələrimiz prioritet təşkil edir. Bu ölkələrlə bizim tarixi, mədəni, etnik köklərimiz gözəl təməl formalaşdırır və bu gün müstəqil dövlətlər kimi biz bütün beynəlxalq təşkilatlarda da vahid mövqedən çıxış edirik, bir-birimizi dəstəkləyirik. Yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq.

Təbii ki, təşkilatımızın gələcək inkişafı ilə bağlı növbəti addımlar atılacaq. Bu gün Türk Dövlətləri Təşkilatı dünya miqyasında böyük nüfuz qazanmışdır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Həm bölgədə gedən proseslərə bizim təsir imkanlarımız artır, eyni zamanda, qlobal müstəvidə də təşkilatımızın rolu artmaqdadır və biz müştərək səylərlə mövqelərimizi möhkəmləndirməliyik. Bu gün bizim təşkilatımız dünyanın aparıcı beynəlxalq təşkilatlarının sırasına daxil edilməlidir. Bu, bizdən asılıdır. Biz nə qədər səylər göstərsək, birlik göstərsək, önəmli layihələrin icrasına nail olsaq və eyni zamanda, tərəfdaşlarımız üçün də önəmli imkanlar yaratsaq, bizim beynəlxalq nüfuzumuz da, mövqelərimiz də, imkanlarımız da bir o qədər artacaq.

Dünyada bir çox beynəlxalq təşkilatlar var, ancaq etnik köklər üzərində yaranmış təşkilatların sayı o qədər də çox deyil. Yəni bu, bizim çox böyük üstünlüyümüzdür. Yəni bizi birləşdirən bizim etnik mənsubiyyətimizdir. Bu, birinci amildir. Ondan sonra bizim coğrafiyamızdır, ölkələr arasındakı çox xoş və isti münasibətlərdir, vahid məqsədlərdir. Ona görə bax, bütün bu amilləri nəzərə alaraq biz təşkilatımızı daha da yüksək pilləyə qaldırmalıyıq. Təşkilatımızın inkişafı üçün əlbəttə ki, Zirvə görüşlərinin böyük əhəmiyyəti var. Bu görüşlər müntəzəm olaraq keçirilir və bildiyiniz kimi, Azərbaycanın təşəbbüsü ilə dövlət başçılarının qeyri-rəsmi görüşləri də keçirilməyə başlamışdır. Birinci belə qeyri-rəsmi Zirvə Görüşü Qarabağda, Şuşada keçirilmişdir. Artıq bu, ənənə halına çevrilib və hesab edirəm ki, bu da çox gözəl göstəricidir. Dövlət başçıları artıq ildə ən azı iki dəfə görüşürlər. Çünki həm müzakirə edilməli məsələlər çoxdur, həm dünyada proseslər o qədər sürətlə gedir ki, daim biz məsləhətləşmələr aparmalı, bir-birimizin fikirlərini öyrənməli və düzgün qərarların qəbul edilməsi üçün ortaq addımlar atmalıyıq.



İqtisadi sahədə, - sizin də görüşünüzün əsas məzmunu bu olacaq, - işlər yaxşı gedir. Azərbaycana gəldikdə, bütün üzv ölkələrlə bizim ticarət dövriyyəmiz artır, qarşılıqlı sərmayə qoyuluşunun həcmi artır. Biz təşkilata üzv ölkələrin iqtisadiyyatlarına 20 milyard dollardan çox sərmayə qoymuşuq. Düzdür, bunun əsas hissəsi Türkiyəyə qoyulan sərmayədir. Ancaq digər üzv ölkələrlə də qarşılıqlı sərmayə qoyuluşu prosesi gedir. Bizim Özbəkistanla, Qazaxıstanla, Qırğızıstanla birgə investisiya fondları yaradılmışdır. Bu fondlar vasitəsilə artıq bir çox layihələr icra edilir, yaxud da ki, onların icrası üçün hazırlıq işləri aparılır.

Xüsusi minnətdarlığı Qarabağın bərpasına qardaş ölkələrin dəstəyinə görə ifadə etmək istərdim. Həm bərpa işlərinə, həm Qarabağda yeni müəssisələrin yaradılması işinə verdiyiniz dəstək bizim üçün çox önəmlidir. Bildiyiniz kimi, artıq Özbəkistan tərəfindən bizə hədiyyə edilmiş Mirzə Uluqbəy məktəbi fəaliyyət göstərir. Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi fəaliyyət göstərir. Qırğızıstanın hədiyyəsi olan Manas məktəbi fəaliyyət göstərir. Bunlar Füzuli, Ağdam rayonlarındadır. Türkiyədən olan bir çox şirkətlər önəmli infrastruktur layihələrində - yollar, körpülər, tunellər, dəmir yolları layihələrində iştirak edirlər. Eyni zamanda, Qarabağda iş yerlərinin yaradılması da bizim üçün çox önəmlidir və yenə də burada birinci xarici sərmayə qardaş ölkələrdən gəlib. Xankəndidə Özbəkistanın dəstəyi ilə böyük tikiş fabriki fəaliyyətə başlamışdır və hörmətli Prezident Şavkat Miromonoviç Mirziyoyevlə birlikdə biz o fabrikin açılışını qeyd etmişdik. Yəni bütün bunlar bir daha göstərir ki, bu gün bizim üçün əsas olan məsələdə, yəni Qarabağın və Şərqi Zəngəzurun bərpasında yenə də bizim yanımızda qardaş ölkələrdir. Biz də öz növbəmizdə hər zaman lazım olan dəstəyi göstərməyə hazırıq və bunu edirik. Türkiyədə yaşanan o dəhşətli zəlzələdən sonra Azərbaycan öz qardaşlıq dəstəyini göstərmişdir və Azərbaycanın maliyyə imkanları hesabına Kahramanmaraşda 100 milyon Amerika dolları dəyərində "Azərbaycan məhəlləsi" tikilib. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanla birlikdə biz bu "Azərbaycan məhəlləsi"nin açılışını da qeyd etmişdik.

Yəni bu, həm bir-birimizə göstərilən praktiki yardımlardır, eyni zamanda, bizim niyyətimizi göstərir. Eyni zamanda, bizim xalqlarımıza bir daha yol göstərir ki, biz bir-birimizin yanında olmalıyıq. Bütün dünyaya isə göstərir ki, Türk dünyası, Türk Dövlətləri Təşkilatı hər zaman - yaxşı günlərdə və çətin günlərdə üzv ölkələr səviyyəsində və təşkilat olaraq vahid məqsədlərə çatmaq üçün əlindən gələni əsirgəmir.

Təbii ki, iqtisadi məsələlərlə, sərmayə qoyuluşu məsələləri ilə yanaşı, bu gün bizim hamımızın qarşısında duran əsas məsələlərdən biri nəqliyyat, logistika, tranzit imkanlarımızı genişləndirməkdir. Prinsip etibarilə buna hər zaman ehtiyac var. Çünki ölkələrimizdən keçən Orta Dəhliz hər birimizin marağına cavab verir. Xüsusilə indiki geosiyasi vəziyyətdə Orta Dəhliz, Trans-Xəzər dəhlizi, Zəngəzur dəhlizi, bu istiqamətdə olan digər layihələr daha böyük önəm daşıyır. Yəqin ki, bu gün Azərbaycan tərəfi bu məsələ ilə bağlı məlumat verəcək. Azərbaycan ərazisində işlərin böyük hissəsi artıq görülüb. Həm dəmir yolları, Bakı Ticarət Limanı, bizim avtomobil yollarımız, hava limanlarımız - bütün nəqliyyat infrastrukturu hazır vəziyyətə gətirilib. O ki qaldı, Zəngəzur dəhlizinin icrasına, orada avtomobil yolunun təqribən 90 faizi, dəmir yolunun isə təxminən 70 faizi hazırdır. Ümid edirəm ki, yaxın gələcəkdə bu layihə tam icra ediləcəkdir. Bilirik və çox şadıq ki, Türkiyədə də Qars-Naxçıvan dəmir yolunun tikintisinə start verilmişdir. Beləliklə, bu layihələrin uzlaşdırılması, koordinasiya şəklində icra edilməsi yeni bir önəmli beynəlxalq dəhliz açacaqdır. Bu, Orta Dəhlizin bir qolu olacaq və bizim inşa etdiyimiz dəmir yolu infrastrukturu birinci mərhələdə 15 milyon ton yükün daşınmasına hesablanıb. Amma gələcəkdə bu arta da bilər və yəqin ki, artacaq. Amma hər halda 15 milyon tonluq yeni bir dəhlizin açılması həm ölkələrimiz, həm də geniş coğrafiya üçün böyük önəm daşıyır. Biz yenə də burada çox ciddi və məsuliyyətli mövqe sərgiləyirik - həm öz maraqlarımızı təmin edirik, həm də dünya üçün yeni nəqliyyat yollarını təqdim edirik. Yəni bu, bir daha göstərir ki, bizim ölkələrimizin və təşkilatımızın məramı sülhə, əməkdaşlığa, əmin-amanlığa, qarşılıqlı hörmətə və qarşılıqlı maraqlara yönəlibdir. Bax, bunları sizin diqqətinizə çatdırmaq istəyirdim. Bilirəm ki, bu gün sizin işiniz çox olacaq, bir çox məsələlər müzakirə ediləcək. Şübhə etmirəm ki, sizin görüşünüz bizim təşkilatımızın inkişafına növbəti töhfə olacaqdır. Bir daha sizi salamlayıram.

***

Sonra Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, Qırğız Respublikasının Nazirlər Kabinetinin Sədri Adılbek Kasımaliyev, Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov, Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Nökərqulu Ataqulıyev, Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstel, Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Baş nazir Əli Əsədov çıxış edərək bölgəmizdə baş verən mühüm proseslərin fonunda qısa perspektivdə regiona mənfi təsirlərin olacağını və gələcəkdə təşkilata yeni fürsətlər gətirəcəyini vurğulayıblar. Xüsusilə bu dövrlərdə sabitliyi, əmin-amanlığı qoruyan ölkələr yeni dövrdə çox əlverişli mövqeyə yüksələcək

***

Görüşün yekununda çıxış edən Prezident İlham Əliyev dedi:

- Sağ olun, təşəkkür edirəm. Bir daha xoş gəlmisiniz. Xahiş edirəm, mənim səmimi salamlarımı ölkələrinizin dövlət başçılarına - dostlarıma, qardaşlarıma çatdırasınız. Onlarla hər görüşüm mənim üçün çox dəyərlidir, əhəmiyyətlidir və qiymətlidir.

Bu gün burada səslənən fikirlər bir daha onu göstərir ki, təşkilatımızın çox gözəl gələcəyi var. Çünki hər bir üzv ölkə və müşahidəçi ölkə təşkilatımızın güclənməsini istəyir. İstəyir ki, təşkilatımız dünya arenasında daha önəmli rol oynasın və əminəm ki, biz buna nail olacağıq.

Bir məsələni də qeyd etmək istərdim. Bizim təşkilatımızın nadirliyi haqqında mən artıq giriş sözümdə fikirlərimi bildirdim. Bir məsələyə də toxunmaq istərdim, o da çox önəmlidir. Çünki təşkilata üzv ölkələr arasında ikitərəfli formatda da münasibətlər çox yaxşıdır. Heç bir problem yoxdur, heç bir anlaşılmazlıq yoxdur və bu da deyə bilərəm ki, dünya təşkilatları arasında nadir bir hadisədir. Çünki biz bilirik dünyada hansı beynəlxalq təşkilatlar var və o təşkilatlar çərçivəsində bəzən bəzi üzv ölkələr arasında ixtilaflar var, qarşıdurmalar var, hətta münaqişələr də var. Amma bizim nadirliyimiz, - bu, bizim çox böyük ümumi müştərək dəyərimizdir, - odur ki, həm çoxtərəfli, həm ikitərəfli formatda ancaq xoş münasibət, xoş niyyət, bir-birimizə olan dəstək və bir-birimizə olan hörmət və ehtiramdır. Bu, çox böyük dəyərdir. Biz bunu həm qorumalıyıq, həm gələcək nəsilləri bu ruhda tərbiyə etməliyik və təşkilatımızı bütün istiqamətlər üzrə elə gücləndirməliyik ki, illər keçdikcə təşkilatımız dünya miqyasında qlobal aktora çevrilsin. Yenə də deyirəm, buna nail olmaq üçün bütün imkanlar var. Birincisi, bizim birliyimiz, ortaq etnik köklərimiz, böyük coğrafiyamız, enerji resurslarımız, nəqliyyat yollarımızdır. Bu gün nəqliyyat deyiləndə bizim coğrafiyamızdan, yəni bizdən yan keçmək mümkün deyil. Biz investisiya qoymaqla, hər bir ölkə öz ərazisində sərmayə qoymaqla bu coğrafiyanı daha da önəmli bir amilə çeviririk. Əminəm ki, bu gün müzakirə olunan və sizin toplantınızda müzakirə ediləcək məsələlər təşkilatımızın gücünü daha da artıracaq.

Bir daha xoş gəlmisiniz.

# İlham Əliyev Türkiyənin Vitse-prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmazın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Cevdet Yılmaz Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Cevdet Yılmaz Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu deyərək, məhz bunun Şuşa Bəyannaməsinin əsas prinsiplərindən biri olduğunu vurğuladı.

Prezident İlham Əliyev də öz növbəsində ölkəmizin hər zaman Türkiyənin yanında olduğunu dedi.

Görüşdə Azərbaycanla Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı, müxtəlif səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin münasibətlərimizin daha da genişlənməsi işinə töhfə verdiyi bildirildi.



Söhbət zamanı Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün keçirilməsinin əhəmiyyətinə toxunuldu, bu tədbirin təşkilat çərçivəsində əməkdaşlığın gücləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığı vurğulandı.

Cevdet Yılmaz bu toplantıda Şimali Kipr Türk Cümhuriyyətinin Baş nazirinin iştirakını da məmnunluqla qeyd edərək, buna görə Azərbaycan tərəfinə təşəkkürünü bildirdi.

Ötən il Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün yüksək səviyyədə keçirildiyini və həmin tədbirdə yaxşı nəticələrin əldə edildiyini deyən qonaq Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyinin uğurlu olduğunu vurğuladı.

Görüş zamanı, həmçinin Azərbaycanla Türkiyə arasında ikitərəfli əməkdaşlığın perspektivləri, regional vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

# Türk birliyi: Ortaq tarixdən ortaq gələcəyə...

Son vaxtlarda Türk Dövlətləri Təşkilatının (TDT) institusional əsaslarının daha da möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılır. Bu baxımdan TDT-na üzv dövlətlərin Hökumət başçıları/Vitse-prezidenti formatında görüşlərin keçirilməsi böyük aktuallıq daşıyır. Bu formatda növbəti görüş aprelin 2-də Bakıda baş tutub. Tədbirdə Azərbaycanın Baş naziri Əli Əsədov, Türkiyənin Vitse-prezidenti Cevdet Yılmaz, Qazaxıstanın Baş naziri Oljas Bektenov, Qırğızıstan Nazirlər Kabinetinin sədri Adilbek Kasımalıyev, Özbəkistanın Baş naziri Abdulla Aripov, Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstel, Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini Nökərqulu Ataqulıyev və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev iştirak edib. Görüş çərçivəsində birgə bəyanat qəbul edilib.

Xatırladaq ki, Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Hökumət başçılarının/Vitse-prezidentinin ilk görüşü ötən ilin sentyabr ayında Bişkekdə keçirilib. Bakıda baş tutan tədbirdə vurğulandığı kimi, Bişkek görüşü, qarşılıqlı əlaqələrimizin gücləndirilməsi baxımından çox səmərəli olub. İlk görüşdə formalaşan müsbət dinamika və işgüzar mühit Bakıda davam etdirilib.

## Mühüm beynəlxalq platforma

TDT-nin yaranmasına aparan yol Naxçıvandan başlayıb. 2009-cu ilin oktyabr ayında Naxçıvanda keçirilmiş Zirvə Görüşündə Azərbaycanın dövlət başçısının təşəbbüsü ilə "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"i imzalanıb və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması üzrə razılığa gəlinib. 2021 ci il noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə qurumun adı dəyişdirlərək Türk Dövlətləri Təşkilatı adlandırılıb.

Hazırda TDT yüksək funksionallığa malik bir təsisatdır. Qısa müddətdə mühüm beynəlxalq platformaya çevrilən bu qurum Türkdilli ölkələrin ortaq gələcəyi




anlamında qəbul olunur.

"Türk Dövlətləri Təşkilatının bugünkü inkişaf səviyyəsi üzv ölkələrin dövlət başçılarının məqsədyönlü siyasətinin və qətiyyətli iradəsinin nəticəsidir". Bunu Azərbaycanın Baş naziri Əli Əsədov Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşündə çıxışı zamanı deyib.

Onun sözlərinə görə, müasir beynəlxalq münasibətlər sistemi bu gün mürəkkəb sınaqlarla üz-üzədir. Belə bir şəraitdə TDT-nin fəaliyyətinin tamam fərqli baxış bucağından diqqət çəkdiyini bildirən Baş nazir vurğulayıb: "Dünyanın müxtəlif bölgələrində münaqişələrin dərinləşməsi, təhlükəsizlik risklərinin artması, logistika zəncirlərində pozuntular, enerji və ərzaq təhlükəsizliyi ilə bağlı çağırışlar dövlətlərarası əməkdaşlığın aktuallığını daha da artırır. Xüsusilə son zamanlar regionda müşahidə olunan gərginlik və artan eskalasiya şəraitində qarşılıqlı həmrəylik və koordinasiya olduqca böyük əhəmiyyət kəsb edir. Belə mürəkkəb şəraitdə Türk Dövlətləri Təşkilatı geniş coğrafiyada sülhün, sabitliyin, inkişafın və qarşılıqlı faydalı əməkdaşlığın təşviqinə töhfə verən mühüm beynəlxalq platformadır".

Bütövlükdə, Türk dünyası 11,2 milyon kvadratkilometrdan artıq ərazini və 200 milyonadək əhalini əhatə edir. Türk coğrafiyasının sərhədləri Qərbdə Adriatik dənizi sahillərindən başlayır, Şərqdə Çin səddinə və Sibirədək uzanır. Türk xalqları tarixən bu coğrafiyada böyük imperatorluqlar (Hun, Göytürk, Avar, Xəzər, Uyğur, Qaraxanlı, Qəznəvi, Böyük Səlcuq, Xarəzmşahlar, Böyük Moğol, Qızıl Orda, Osmanlı, Teymurilər, Səfəvilər, Babur, Əfşarlar) və müxtəlif ölçülü dövlətlər qurmağa nail olublar. Müasir dövrdə isə 7 müstəqil türk dövləti var - Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və de-jure hələlik yalnız Türkiyə tərəfindən tanınan Şimali Kipr Türk Cumhuriyyəti. Bunlar hazırda türk dünyasının ümumi ərazisinin 44 faizini əhatə edir, qalan 56 faizi isə hələ ki, müstəqil deyildir.

Geniş türk coğrafiyası, eyni zamanda, böyük iqtisadiyyatdır. Burada zəngin təbii sərvətlər cəmləşib. Həmçinin türk dövlətləri kifayət qədər əlverişi coğrafi yerləşməyə malikdirlər. Avrasiyada Şərq-Qərb, Şimal-Cənub, eləcə də Transxəzər (Orta Dəhliz) kimi nəqliyyat bağlantıları məhz bu ərazilərdən keçir. Bütün bunlar türk dünyasının beynəlxalq birliyə yeni güc mərkəzi kimi təqdim edməsinə real əsaslar yaradır.

## Azərbaycanın artan rolu

Biz yuxarıda TDT-nin təməlinin Naxçıvanda qoyulduğunu qeyd etdik. Sonrakı mərhələlərdə də türk birliyinin möhkəmlənməsində hər zaman Azərbaycanın artan rolu diqqət çəkib. İndiyədək Prezident İlham Əliyev Türkdilli ölkələr arasında siyasi, iqtisadi, mədəni inteqrasiyanın daha da dərinləşməsini hədəfləyən çoxsaylı təşəbbüslər irəli sürüb və həmin təşəbbüslər TDT-na üzv dövlətlər tərfindən böyük məmnunluqla qarşılanıb. Dövlətimizin başçısı türk dünyasını vahid bir ailə kimi səciyyələndirib və bildirib ki, bizi başqa yerdə gözləmirlər.

Belə həssas yanaşmanın təzahürü olaraq Azərbaycan mütəmadi qaydada TDT-nin müxtəlif tədbirlərinə məmnuniyyətlə ev sahibliyi edir. Xatırladaq ki, 2024-cü il iyulun 6-da ilk dəfə Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib. Ötən il oktyabrın 7-də isə Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü baş tutub. Tarixi şəhərimiz olan Qəbələnin ev sahibliyi ilə keçirilən Zirvə Görüşü TDT-nin inkişafında starteji bir addım kimi dəyərləndirlir. Tədbir çərçivəsində qəbul olunan qərarlar və birgə Bəyanat qarşıdakı strateji mərhələdə Türk dünyasının əsas hədəfləri-ni müəyyənləşdirib.

Qəbələ Zirvə Görüşündə TDT-yə sərlik dost Qırğızıstandan Azərbaycana keçib. Məlumdur ki, respublikamızın TDT-na bundan əvvəlki sədrliyi qlobal pandemiya dövrünə təsadüf edib. Azərbaycan əvvəlcədən məsuliyyətli bir gündəlik müəyyənləşdirmişdi. Ancaq qlobal pandemiyanın yaratdığı çağırışlar fərqli idi və buna görə də respublikamız gündəliyini yeni tələblərə uyğunlaşdırmaq məcburiyyətində qaldı. Həmin çətin günlərdə Prezident İlham Əliyev o mövqedən çıxış etdi ki, qlobal çağırışlara ancaq beynəlxalq həmrəyliyi gücləndirməklə cavab vermək mümkündür. Beləliklə, dövlətimizin başçısının təşəbbüsü ilə Türkdilli ölkələrin dövlət başçılarının onlayn formatda çox mühüm Zirvə Görüşü təşkil olundu. Bu, qlobal pandemiya dövründə beynəlxalq səviyyədə təşkil olunan ilk belə tədbir idi.

Həmin təcrübəyə istinad edərək belə bir qənaəti əminliklə ifadə edə bilərik: Azərbaycan bu dəfə də liderlik keyfiyyətləri nümayiş etdirməklə uğurlu sədrlik həyata keçirəcək. Baş nazir Əli Əsədov çıxışında bildirib ki, Azərbaycan bundan sonra da Türk Dövlətləri Təşkilatının fəaliyyətinə fəal töhfə verməyə, üzv dövlətlərlə çoxtərəfli və ikitərəfli əsasda əməkdaşlığı daha da inkişaf etdirməyə hazırdır. O qeyd edib ki, cari ildə Azərbaycanın sədrliyi çərçivəsində təşkilat daxilində həmrəyliyin möhkəmləndirilməsi, praktiki əməkdaşlığın genişləndirilməsi və ortaq təşəbbüslərin irəli aparılması istiqamətində məqsədyönlü səylər davam etdiriləcək.

## 58 sahəni əhatə edən əməkdaşlıq

Bakının ev sahibliyi etdiyi tədbirdə Türkdilli ölkələr arasında əməkdaşlıq əlaqələrinin genişlənməsindən böyük məmnunluq ifadə olunub. Bu xüsusda fikirlərini ifadə edən Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev deyib: "Türk Dövlətləri Təşkilatı əməkdaşlığın gücləndirilməsində və hökumətlər arasında daha yaxşı əlaqənin təmin edilməsində öz rolunu göstərib. Son illər ərzində təşkilat öz fəaliyyətinin miqyasını genişləndirib. Hal-hazırda 58 müxtəlif sahədə biz əməkdaşlıq mexanizmləri tətbiq edirik".

"Hazırda regionumuzda və dünyada ciddi çağırışlar müşahidə olunur. Biz isə yaranan qeyri-sabitlik səbəbindən dövlət başçılarımızın təlimatlarına əsasən siyasi və təhlükəsizlik sahəsində əməkdaşlığı gücləndiririk. Həmçinin nəqliyyat bağlantıları da əməkdaşlığın ən perspektivli sahələrindən biridir və Orta Dəhliz bu gün cari geosiyasi mühitdə ən vacibidir. Belə ki, 2025-ci ildə Orta Dəhlizlə yükdaşıma həcmi 4,7 milyon tona çatıb və bu rəqəmin 2027-ci ilə qədər 10 milyon tona çatacağı gözlənir", - deyə Kubanıçbek Ömüralıyev vurğulayıb.

Qarşılıqlı ticarət dövriyyəsi də getdikcə artır. Baş nazir Əli Əsədovun sözlərinə görə, ötən il Azərbaycanın Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə ümumi ticarət dövriyyəsi 5 faizdən çox artıb. Azərbaycanın üzv dövlətlərə yatırdığı sərmayələrin ümumi həcmi isə 21 milyard ABŞ dollarıdır. Eyni zamanda, bir sıra tərəfdaş ölkələrlə yaradılmış birgə investisiya fondları prioritet sahələr üzrə qarşılıqlı sərmayə qoyuluşunun genişlənməsinə və iqtisadi əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edir.

## Qarşılıqlı ticarətin payının 10 faizə çatdırılması hədəflənir

TDT-də təmsil olunan ölkələr arasında qarşılıqlı ticarəti genişləndirmək imkanları kifayət qədər böyükdür. Türkiyənin Vitse-prezidenti Cevdet Yılmaz bildirib ki, 2024-cü ildə TDT-yə üzv və müşahidəçi ölkələrin öz aralarındakı ixracının ümumi həcmi 35,3 milyard dollara çatıb. Bu rəqəm, ölkələrimizin dünya üzrə ümumi ixracının 6,1 faizinə bərabərdir.

O vurğulayıb ki, eyni dövrdə ölkələrimiz bütün dünya ilə ticarətdə təxminən 1,2 trilyon dollarlıq dövriyyəyə nail olaraq, qlobal miqyasda çəkisini bir daha sübut edib.

"Təşkilat daxilində ticarət həcminin daha yüksək səviyyəyə çatdırılması üçün liderlərimiz tərəfindən konkret hədəfin müəyyənləşdirilməsinin faydalı olacağını düşünürəm. Bu çərçivədə qarşılıqlı ixracın ümumi ixracdakı payını yaxın dövrdə ən azı 10 faizə çatdıra biləcəyimizə inanıram. Düşünürəm ki, ikitərəfli və regional iqtisadi münasibətlərimizi gücləndirən digər mühüm sahə investisiyalardır. Bu baxımdan, TDT-yə üzv ölkələrin investisiyalarını prioritet istiqamətlərə yönəldəcək konkret təşəbbüslərə fokuslanmaq artıq seçim deyil, strateji zərurətdir. İkitərəfli səviyyədə İnvestisiyaların Qarşılıqlı Təşviqi və Qorunması haqqında sazişlərin müasir tələblərə uyğun şəkildə yenilənməsi investorlar üçün daha etibarlı mühit yaradacaq və qərarların daha sürətli qəbuluna təkan verəcək", - deyə Türkiyənin Vitse-prezidenti bildirib.

*Mübariz ABDULLAYEV*

# TDT-nin Bakıda keçirilən görüşü çərçivəsində birgə bəyanat qəbul edilib



Aprelin 2-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşü çərçivəsində birgə bəyanat qəbul edilib.

Bəyanatı təqdim edirik:

"Türk Dövlətləri Təşkilatının Hökumət başçıları/Vitse-prezidentinin ikinci görüşü 2026-cı il aprelin 2-də Bakıda keçirilmişdir. Görüşdə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz, Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenov, Qırğız Respublikasının Nazirlər Kabinetinin sədri - Prezident Administrasiyasının rəhbəri Adılbek Kasımaliyev, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, Şimali Kipr Türk Respublikasının Baş naziri Ünal Üstel, Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Nökərgulu Ataguliyev, həmçinin TDT-nin Baş katibi Kubanıçbek Ömürəliyev iştirak etmişlər.

TDT-yə üzv dövlətlərin Hökumət başçilari/Vitse-prezidenti 2025-ci il sentyabrın 18-də Bişkekdə Qırğız Respublikasının sədrliyi dövründə keçirilmiş birinci görüşün uğurla təşkil olunmasını alqışlamışlar;

Azərbaycan Respublikasının TDT-də davam edən sədrliyinə dəstək ifadə etmiş və birlik, institusional potensialın gücləndirilməsi və prioritet sahələr üzrə praktiki əməkdaşlığın inkişafına yönəlmiş fəal səylərini yüksək qiymətləndirmişlər;

Naxçıvan Sazişi və TDT-nin digər əsas sənədləri çərçivəsində üzv dövlətlərin öhdəliklərini bir daha təsdiqləmiş və TDT çərçivəsində sıx əməkdaşlığın regionda və onun hüdudlarından kənarda sülh, sabitlik və davamlı inkişafın təşviqində mühüm rol oynadığını vurğulamışlar;

2025-ci il oktyabrın 7-də Qəbələdə "Regional sülh və təhlükəsizlik" mövzusunda keçirilmiş TDT-nin 12-ci Zirvə görüşünün nəticələrinin əhəmiyyətini qeyd etmiş, dəyişən geosiyasi və təhlükəsizlik çağırışları fonunda qarşılıqlı maraq doğuran məsələlər üzrə mövqelərin möhkəmləndirilməsi məqsədilə əməkdaşlığın intensivləşdirilməsi barədə razılığın əldə olunduğunu vurğulamışlar;

Bu çərçivədə, 2026-cı il martın 7-də İstanbulda keçirilmiş TDT Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclasının nəticələrini müsbət qiymətləndirmiş, regionda sülh və təhlükəsizliyə birbaşa təhdid yaradan regional və qlobal proseslər üzrə geniş məsləhətləşmələrin aparılması üçün mühüm imkan kimi dəyərləndirmişlər;

Üzv və müşahidəçi dövlətlər arasında iqtisadi əlaqələrin və investisiya əməkdaşlığının genişləndirilməsinin, o cümlədən birgə layihələrin təşviqi, biznes və investisiya mühitinin yaxşılaşdırılması və bizneslərarası əlaqələrin gücləndirilməsinin vacibliyini vurğulamışlar;

"Türk Dünyasına Baxış-2040" sənədini nəzərə alaraq, ticarətdə qeyri-tarif maneələrinin aradan qaldırılması yolu ilə üzv dövlətlər arasında ticarət həcminin artırılmasına sadiqliyini ifadə etmişlər;

Sənaye inkişafının iqtisadi artıma töhfəsini və dayanıqlı iqtisadi modelin formalaşmasındakı rolunu qeyd edərək, qarşılıqlı maraq doğuran sənaye sahələrində əməkdaşlığın gücləndirilməsinə hazır olduqlarını bildirmişlər;

Standartlaşdırma, rəqəmsallaşma və yaşıl texnologiyaların təşviqi sahələrində əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini qeyd etmişlər;

Kənd təsərrüfatı sahəsində əməkdaşlığın gücləndirilməsinin davamlı iqtisadi artım və ərzaq təhlükəsizliyi baxımından əhəmiyyətini vurğulamışlar;

Enerji təhlükəsizliyinin gücləndirilməsi, enerji mənbələrinin şaxələndirilməsi və enerji marşrutlarının təhlükəsizliyinin təmin olunmasının vacibliyini qeyd etmişlər;

Neft, qaz və digər karbohidrogenlərin nəqli sahəsində mövcud infrastrukturun səmərəli istifadəsini və genişləndirilməsini dəstəkləmişlər;

Yaşıl enerji layihələrinin inkişafı və ötürülməsi sahəsində əldə olunmuş irəliləyişi alqışlamış və Yaşıl Enerji Dəhlizinin inkişafına güclü dəstək ifadə etmişlər;

Kritik mineralların enerji təhlükəsizliyi baxımından əhəmiyyətini vurğulamış və əməkdaşlıq imkanlarının araşdırılmasına çağırmışlar;

Enerji səmərəliliyinin artırılması və qabaqcıl təcrübələrin paylaşılmasının təşviq olunmasını dəstəkləmişlər;

Nüvə enerjisindən dinc məqsədlərlə istifadə sahəsində əməkdaşlıq imkanlarının araşdırılmasını dəstəkləmişlər;

İnnovasiya, rəqəmsal transformasiya və süni intellektin iqtisadi inkişaf üçün strateji əhəmiyyətini qeyd etmiş və bu sahələrdə əməkdaşlığın genişləndirilməsini dəstəkləmişlər;

Kosmik texnologiyaların artan əhəmiyyətini nəzərə alaraq, bu sahədə birgə təşəbbüslərin təşviqini dəstəkləmişlər;

Nəqliyyat dəhlizlərinin inkişafını və rəqəmsal əlaqələndirmə infrastrukturunun inteqrasiyasını dəstəkləmişlər;

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üzrə əməkdaşlıq haqqında sazişin əhəmiyyətini vurğulamışlar;

TDT-nin Zirvə görüşlərində qəbul edilmiş qərarların icrasının təmin edilməsinin vacibliyini bir daha təsdiqləmişlər;

Qazaxıstanın 2026-cı ildə Türküstanda Süni İntellekt və Rəqəmsal İnkişaf mövzusunda qeyri-rəsmi Zirvə görüşünə ev sahibliyi təşəbbüsünü alqışlamışlar;

Tədbirin yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Azərbaycan Respublikasına dərin minnətdarlıqlarını bildirmişlər.

Birgə bəyanat 2026-cı il aprlein 2-də Bakıda ingilis dilində qəbul edilmişdir".

# Çindən Avropaya ilk dəfə

## Orta Dəhliz vasitəsilə yük qatarı Bakıya yola düşüb

Çinin Hubey əyalətinin Uhan şəhərindən elektron avadanlıqlar, məişət texnikası və gündəlik tələbat malları ilə yüklənmiş Çin-Avropa yük qatarı Bakıya yola düşüb. Bu, Uhandan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) vasitəsi ilə Bakıya gedən ilk birbaşa Çin-Avropa yük qatarıdır. Qatar Çinin Sincan Uyğur Muxtar Rayonundakı Horqos sərhəd-keçid məntəqəsindən Qazaxıstana, ordan isə Xəzər dənizi ilə Bakıya çatacaq. Dəmir yolu və dənizi birləşdirən multimodal nəqliyyat vasitəsilə səyahətin 18 gün ərzində başa çatacağı gözlənilir.

Qlobal logistika mühitində yeni hadisə olan bu nəqliyyat daşımaçılığı ənənəvi beynəlxalq logistika kanalları ilə müqayisədə daha sərfəli və maneəsiz hesab edilir. Belə ki, bu marşrut daha aşağı geosiyasi risklər, daha güclü təchizat zənciri dayanıqlılığı və daha idarəolunan nəqliyyat əlaqələri təklif edir. Eləcə də adıçəkilən nəqliyyat xətti Hubeyin ixrac yönümlü müəssisələrinin inkişaf etməkdə olan Avrasiya bazarlarına genişlənməsi üçün yüksək səmərəli və sabit logistika arteriyası təmin edir.

**Vahid Asiya-Avropa nəqliyyat blokunun yaradılması**

Qeyd edək ki, bölgədə baş verən son geosiyasi proseslər Avropa İttifaqının (Aİ) da Orta Dəhlizə marağını artırıb. Xeyli müddətdir ki, Trans-Qazaxıstan dəhlizinə maliyyə dəstəyi verən Aİ Orta Dəhlizin digər nəqliyyat bağlantıları ilə sıx əlaqələndirilməsi və yeni infrastrukturların yaradılması üçün öz təşəbbüskarlığını daha da artırıb. Avropa Komissiyasının beynəlxalq əməkdaşlıq üzrə baş direktoru Henrik Holole bəyan edib ki, Orta Dəhlizinin böyük coğrafi imkanları nəzərə alınmaqla nəqliyyat hərəkətliliyinin intensivləşdirilməsi üçün sərmayə yatırılması məsələləri diqqətdə saxlanılmalıdır. Mərkəzi Asiya ölkələrinin Orta Dəhlizin formalaşması istiqamətində səylərini müsbət dəyərləndirən cənab Holole vahdi Asiya-Avropa nəqliyyat blokunun yaradılması sayəsində tam rentabelli logistika arteriyasının işinin təmin ediləcəyinə əminliyini vurğulayıb.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və daha sonra Türkiyə və Avropa ölkələrinə qədər uzanan böyük bir nəqliyyat arteriyasıdır. Bu layihənin yaradıcılarından və əsas təşəbbüskarlarından biri Azərbaycandır. Rəsmi Bakı Çin və Aİ ilə bu layihənin imkanlarını bir neçə il əvvəl geniş müzakirə edib və beynəlxalq nəqliyyat arteriyalarının




əsas qovşaqlarından birinə çevirməyi təklif edib. Xüsusilə də son 2 ildə regionda yaranmış yeni geosiyasi düzənin fonunda meydana çıxmış nəqliyyat-logistika xətlərinin şaxələndirilməsi reallıqlara əsaslanaraq ölkəmiz regiondakı marşrutların çoxşaxəliliyinin təmin edilməsində aktiv rol oynamağa başlayıb.

**Azərbaycan və Çinin müəllifi olduğu layihə...**

Yeni İpək Yolunun əsas müəllifi olan Çin bu layihənin gerçəkləşməsində Azərbaycanın iradəsini xüsusilə müsbət dəyərləndirir. Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun Rusiya və Mərkəzi Asiya Araşdırmaları Mərkəzinin direktoru Çianq Siaoy Çin ilə Azərbaycan arasında əlaqələrin inkişafına toxunarkən Cənub və Şimal, Şərq və Qərb nəqliyyat körpülərinin üzərində mövqe tutan Azərbaycanın Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı üçün liderliyini də yüksək dəyərləndirdi və bu məsələdə rəsmi Pekinin ölkəmizdə siyasi-iqtisadi dəstəyini ifadə edib. Cənab Siaoyun qənaətinə görə, Çin Orta Dəhlizin ən axıcı və hərəkətverici qoluna çevrilə biləcək Transxəzər Nəqliyyat Dəhlizinə müsbət yanaşır və bu sahədə Azərbaycanla birgə zəruri addımlar atmağa hazırdır. Çünki bu dəhliz qloballaşmanın iqtisadiyyata mənfi təsirlərini azaltdır və böyük bir coğrafiyada iqtisadi inteqrasiyanı böyütməklə regional inkişafa ciddi təkan yaradır. Həmçinin, beynəlxalq səviyyədə yüklərin daşınmasına və beləliklə də milli gəlirlərin artmasına töhfə verir..

Məhz Çin və Azərbaycanın artan təşəbbüskarlığı sayəsində Mərkəzi Asiya ölkələrinin TransXəzərə cəlb olunması daha da aktuallaşıb və hüquqi-iqtisadi əsaslar yaranıb. 2024-cü ilin mart ayında Qazaxıstan Prezidenti Qasım-Cömərd Tokayevin Azərbaycana dövlət səfəri zamanı Siandan Bakıya gələn konteyner qatarının birgə qarşılanma mərasimi keçirilib və bu, Çin-Qazaxıstan-Azərbaycan nəqliyyat ittifaqının faktiki nümayişi kimi yadda qalıb. Qazaxıstan Çinlə iqtisadi-ticari münasibətlərin inkişafı fonunda Pekinin bu dəstəyinə arxalanaraq TransXəzərə olan ehtiyacını bəyan edib. Digər Mərkəzi Asiya ölkələri də bu dəhlizin imkanlarını dəyərləndirərək eyni mövqe nümayiş etdirir. Özbəkistanın, Qırğızıstanın, Tacikistanın dövlət başçılarının son dövrlərdə Azərbaycana səfərləri zamanı ən aktual mövzulardan biri də məhz Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin yaradılması ilə bağlı olub.

**Bakı və Türkmənbaşı Avrasiya Nəqliyyat Marşrutunda əməkdaşlığı genişləndirir**

Türkmənistan hökuməti də Orta Dəhliz layihəsində öz səylərini artırmaqdadır. Rəsmi Aşqabad dəhlizin ən mühüm qovşaqlarından biri olan Xəzər nəqliyyat bağlantısını möhkəmləndirmək üçün Azərbaycanla əməkdaşlığı gücləndirmək niyyətindədir. Ötən gün ölkəmizdə olan Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Nökərqulı Ataqulıyevin Bakı Beynəlxalq Dəniz Limanında

"AZCON Holding"in şirkətlərindən olan "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbəri ilə görüşü də bu niyyətdən xəbər verir. Bakı Limanı haqqında, o cümlədən ADY-yə inteqrasiyasından sonra burada görülmüş işlər və Orta Dəhlizlə multimodal daşımalarda limanın rolu barədə məlumatla tanış olan

Türkmənistan nümayəndə heyəti aktiv logistika lanşaftındakı vəziyyəti yüksək dəyərləndirib. Rekord həcmdə - 100 min TEU konteynerdən çox yük daşınan limanın nəhəng infrastruktur imkanlarını nəzərə alan Türkmənistan hökuməti bu nəqliyyat xəttinə qoşulmaq üçün imkanların səfərbər edəcəyini bildirib. Belə ki, ikitərəfli əməkdaşlıq çərçivəsində Türkmənbaşı Beynəlxalq Dəniz Limanında dəniz dibinin dərinləşdirilməsi ilə infrastrukturun təkmilləşdirilməsi və liman üzərindən yükdaşımaların artırılması nəzərdə tutulur ki, bu da vahid nəqliyyat siyasətinə xidmət edir. Eyni zamanda, tərəflər Orta Dəhlizin və Avrasiya Nəqliyyat Marşrutunun inkişafı çərçivəsində multimodal daşımalar üzrə əməkdaşlığın genişləndirilməsi və Şərq-Qərb-Şərq istiqamətində yük axınının artırılması üçün daha fəal addımlar atmaq niyyətindədir.

**ABŞ Orta Dəhlizi regional əməkdaşlıq layihəsi hesab edir**

Azərbaycanın mühüm nəqliyyat-tranzit mövqeyi, Avropa və Asiyanı birləşdirən Orta Dəhliz vasitəsilə ticarət axınlarını artırmaq məqsədilə həyata keçirdiyi təşəbbüslər və infrastruktur layihələrinin əhəmiyyəti ABŞ tərəfindən də diqqətlə izlənilir. Rəsmi Vaşinqton Orta Dəhlizin coğrafiyasında ticarət və enerji marşrutlarının şaxələndirilməsinə və region ölkələrinin rifahına xidmət edəcəyinə əminliyini ifadə edib.

Hazırda Azərbaycan Orta Dəhlizin ən etibarlı nöqtələrindən birinə çevrilir, Şərq-Qərb istiqamətində daşınmaların tranzit qovşağı kimi beynəlxalq daşınmaların axıcılığını təmin edir. Beynəlxalq ticarət icması da Azərbaycanın bu geostrateji və coğrafi mövqeyinin əhəmiyyətliliyini nəzərə alaraq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) yaradılmasında xüsusi təşəbbüskarlıq göstərərək dəstək verir. Bundan başqa, Azərbaycan sərhəd-keçid sistemində ən müasir texnologiyalar tətbiq edərək gömrük rejimini asanlaşdırır, qlobal ticarət tərəfdaşları ilə gömrük dərəcələrinin aşağı salınması istiqamətində addımlar atır.

Azərbaycanın əhəmiyyətli geoiqtisadi və coğrafi mövqeyi TransXəzər-Qərb nəqliyyat habını formalaşdırır və bu logistika quruculuğu Vaşinqton tərəfindən yüksək dəyərləndirilir. Orta Dəhlizin növbəti həlqəsinə çevrilməkdə olan Zəngəzur qovşağına Amerikanın xüsusi marağı və "Tramp Marşrutu"nun (TRIPP) ərsəyə gəlməsi də bu strateji baxışa söykənir. Bu kimi təşəbbüslərin artması, o cümlədən ABŞ-ın Orta Dəhliz üzrə Sertifikatlaşdırılmış Ticarət Missiyasının nümayəndələri ilə bir müddət əvvəl görüşün keçirilməsi Orta Dəhliz və müasir kommunikasiya quruculuğunda Vaşinqton-Bakı təşəbbüskarlığının əzmkar nümunəsi kimi dəyərləndirilə bilər.

Göründüyü kimi Azərbaycanın əsas oyunçu və mərkəzi coğrafiya olduğu TransXəzər dəhlizinin fiziki sxemi artıq formalaşmaq üzrədir. Bu dəhlizin növbəti dayanacağı Zəngəzur xətti olacaq ki, nəticədə Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsi tam təmin ediləcək. Beləliklə, ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığın simvoluna çevrilən Transxəzər Nəqliyyat Dəhlizi Azərbaycan müasir geoiqtisadi və geosiaysi platformalarda yerini və mövqeyini daha da gücləndirəcək.

***E.CƏFƏRLİ***

# "ING Group"un ümidverici proqnozları:

## "Azərbaycanın xarici iqtisadi mövqeyi çox güclüdür"

Niderlandın nüfuzlu maliyyə institutu olan "ING Group" MDB ölkələrinin makroiqtisadi göstəriciləri üzrə hesabatını təqdim edib. Sənəddə qeyd olunur ki, Yaxın Şərqdəki müharibə yanacaq qiymətlərinin artması, qlobal risk meylinin azalması, həmçinin potensial ticarət fasilələri və inflyasiyanın artması daxil olmaqla, bir neçə amil vasitəsilə MDB regionuna təsir göstərir. Neftin qiymətinin artması bölgədəiri enerji ixracatçıları olan Azərbaycan və Qazaxıstanın xarici iqtisadi vəziyyətini və maliyyə perspektivlərini yaxşılaşdırır, enerji resurslarının idxalından asılı olan ölkələrə, o cümlədən Ermənistana təzyiq göstərir.

"ING"in ekspertləri hazırkı ssenarilərə əsaslanaraq 2026-cı il üzrə enerji daşıyıcılarının yeni qiymət ehtimallarını da irəli sürüb. Belə ki, il əzində "Brent" markalı neftinin qiymət proqnozu bir barrel üçün 82 dollar (əvvəli proqnoza nisbətən 20 faiz artım), digər markalı neftin isə 80-100 dollar arasında tədarük ediləcəyi güman olunur. Eyni zamanda, risklərin qiymətlərin daha da yüksəlməsi istiqamətinə yönəldiyi ehtimal edilir. Aİ və digər inkişaf etmiş ölkələrdən, Türkiyə, İran və Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası (KƏŞ) ölkələrindən idxal asılılığı əsas risk olaraq qaldığından, analitiklər bu halların qlobal iqtisadiyyatını ləngiməsinə səbəb olacağını istisna etmirlər. Təxminlərə görə, Yaxın Şərqdəki gərginliyin qlobal inflyasiya risklərini gücləndirməsi bütün regionda ehtiyatlı siyasət yanaşmasını gücləndirəcək, bir çox ölkələr maliyyə və bank sistemini qorumaq üçün müxtəlif alətlərdən sərt istifadəyə keçməyə məcbur olacaq. "ING Group"un analitikləri mövcud risklər fonunda Azərbaycanın karbohidrogen tədarükçüsü olmaqla, xarici iqtisadi mövqeyini gücləndirərək maliyyə sektorunu dayanıqlı saxlayacağını vurğulayırlar. Belə ki, maliyyə-fiskal sabitlik fonunda Azərbaycan manatının ABŞ dollarına nisbətdə məzənnəsinin öz etibarlı mövqeyini qoruyub saxlayacaq, bəzi ölkələrdə isə məzənnə təzyiqləri qaçılmaz olacaq. Cənubi Qafqazda Ermənistan dramı şişirdilmiş (real dəyərindən baha) məzənnə kursunda saxlanılsa da, tədiyyə riskləri qalır.

**Neftin bahalaşması Azərbaycanın ÜDM-ni davamlı böyüdəcək**

Maliyyə qrupunun iqtisadçıları onu da vurğulayıblar ki, neftin qiymətinin hər barel üçün əlavə 10 dollar artması Azərbaycanın illik ixracının dəyər ifadəsində təxminən 3 milyard dollar (ÜDM-in 4 faizi artmasına və 1,5-2 milyard dollar məbləğində əlavə büdcə gəlirlərinə səbəb olur. Tədqiqatda, həmçinin qeyri-neft sektorundakı müsbət amillər vurğulanıb. Qeyd olunub ki, nisbətən yüksək sənaye inam göstəricisi fonunda korporativ kreditləşmənin artımının son vaxtlar stabilləşməsi qeyri-neft sektorunda investisiya fəallığının potensial bərpasına işarə edir. Vurğulanır ki, Azərbaycanın fiskal rentabellik nöqtəsi özünün 10 illik diapazonunda qalır. Dayanıqlı fundamental göstəricilər neftin fiskal rentabellik qiymətini bir barel üçün təxminən 59 dollar səviyyəsində sabit saxlamağa kömək edib.

Tədiyyə balansının cari əməliyyatlar hesabının müsbət saldosuna gəlincə, "ING Group" Azərbaycanın tədiyə balansının cari əməliyyatlar hesabının profisitinin 2026-cı ildə ümumi daxili məhsulun (ÜDM) orta hesabla 6,5 faizini təşkil edəcəyini bildirir. 2027-ci ilin yekunları üzrə cari əməliyyatlar hesabının profisiti isə ÜDM-in 1,7 faizi nisbətində fərz edilir. 2026-cı ilin yekunları üzrə Azərbaycanın xarici ticarət dövriyyəsinin profisiti ÜDM-in 11,6 faizini, 2027-ci ildə isə ÜDM-in 6,6 faizini təşkil edəcək. Bu amillər Azərbaycanın ümumi xarici iqtisadi mövqeyini gücləndirir. Mərkəzi Bankın ehtiyatları və Dövlət Neft Fondunun suveren aktivlər ÜDM-in təxminən 115 faizi səviyyəsindədir ki, bu da güclü və dayanıqlı təhlükəsizlik yastığı deməkdir. Bu, möhkəm aktiv buferləri neftin qiymətinin 60 dollarlıq rentabellik həddindən aşağı düşdüyü halda belə, belə Azərbaycanın tədiyyə balansını müsbət saxlamağa imkan verir. Eyni zamanda, manatın dollara qarşı məzənnəsinin uzunmüddətli çərçivədə 1.70 səviyyəsində qorumasını təmin edir.

**Qeyri-neft mənbələri iqtisadi artımı təmin edir**

Yeri gəlmişkən, "ING Group" vurğulayıb ki, Azərbaycan iqtisadiyyatı ötən ildə mülayim artım templəri nümayiş etdirib və fiskal dayanıqlılığını saxlayıb. Ötən il əsas dəyər yaradan sahə - qeyri-neft mənbələrini üzərində inkişaf templəri ümumi iqtisadi artımın təmin edib . Hökumətin stimullaşdırıcı büdcə və kredit siyasətləri çərçivəsində qeyri-neft dinamikası əlavə dəyərin formalaşmasında üstünlük təşkil etməkdədir. Xarici ticarət və tədiyyə balansında müsbət saldonun qeydə alınması makrosabitliyin möhkəm sütunlarda dayandığını göstərir. Büdcə ÜDM-in 2,6 faiz səviyyəsində qeydə alınan profisiti maliyyə-fiskal yığımların əvvəlki fiskal hərərətinin davam etməsini təsdiqləyir. Nəticədə 2026-cı ildə neft amili olmadan, inkişafın mühüm drayveri olan qeyri-neft yığımları üstün olaraq qalacaq.

Azərbaycanda monetar amil də ümidvericidir, yürüdülən uçot siyasəti faiz dərəcələrinin yumşalmasından xəbər verir. Belə ki, Mərkəzi Bank uçot dərəcəsini 7 faizə endirib, sentyabrda da eyni dərəcədə saxlaması sərt pul siyasətindən daha konservativ olduğunu şərtləndirməklə bank sektoru üçün əlverişli faiz tətbiq etməsinə imkan yaradır. Bu tendensiya ölkənin maliyyə dayanıqlığına da işarə edir, Azərbaycan manatının sabitliyinin bir göstəricisi olaraq çıxış edir.

**Sülh sazişi regional əhval-ruhiyyəni dəyişir**

Azərbaycanın kredit strategiyası üzrə fundamental mənzərəsi də ümumilikdə müsbət dəyərləndirilir. Hazırda ölkəmizin kredit reytinqləri investisiya kateqoriyasındadır və Yaxın Şərq münaqişəsindən qaynaqlanan müəyyən mənfi yan təsirlərə baxmayaraq, investisiya balansı sabitdir. "ING" analitiklərinin fikrincə, Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması yönündə ardıcıl və iradəli addımlar regional əhval-ruhiyyəni xeyli müsbət yöndə dəyişdirməklə mühüm siyasi amil kimi həm də iqtisadi situasiyalara pozitiv təsir edə bilər. Regionda sülh və sabitliyin dayanıqlı bərqərar olması böyük bir coğrafiyada rifah və inkişaf arxitekturasını möhkəmləndirmiş olacaq. Regionda investisiya, müştərək biznes proqramları, nəqliyyat, logistika, tranzit həmrəyliyinin formalaşması çoxtərəfli iqtisadi platformalar yaratmaqla bütün tərəflərin faydalanmasına səbəb ola bilər.

Bu amili nəzərə alan "Moody's" və




digər agentliklərin müsbət proqnozu il ərzində qorunub saxlanılacaq. Həmçinin, Ermənistanla davam edən sülh prosesi son illərin irəliləyişini nəzərə alaraq bu mərhələdə daha çox müsbət katalizator rolunu oynayacaq və bu kontekstdə qiymətləndirmələr Azərbaycan üçün cəlbedici regional inteqrasiyanı gücləndirəcək.

**İnflyasiya sabit həddə qalacaq**

"ING Group" Azərbaycanda illik inflyasiya gözləntilərini də açıqlayıb. 2026-cı ildə qiymət indeksinin 5 faiz, gələn il isə 5,5 faiz olacağı proqnozlaşdırılır.

İqtisadiyyat Nazirliyinin proqnozlarına görə, ölkədə orta illik inflyasiya 2026-cı ildə 4,8, 2027-ci ildə isə 4,5 faiz təşkil edəcək. Mərkəzi Bankının son proqnozlarında isə cari ildə illik inflyasiyanın təxminən 5,7 faiz təşkil edəcəyi fərz olunur.

BMT isə bu il Azərbaycanda inflyasiyanı 3,1 faiz səviyyəsində proqnozlaşdırır. Dünya Bankı 2026-cı ildə Azərbaycanda orta illik inflyasiyanı 2,3 faiz, Asiya İnkişaf Bankı isə 3,5 faiz səviyyəsində gözləyir.

"Moody's" beynəlxalq reytinq agentliyi cari ildə Azərbaycanda orta illik inflyasiyanı 3 faiz, "Fitch Ratings" 4,6 faiz, "Fitch Solutions" isə 5,5 faiz səviyyəsində proqnozlaşdırır.

Mərkəzi Bank hesab edir ki, inflyasiya təhdidləri üçün əsaslı fundamental rıçaqların ortaya çıxacağı nəzərə çarpmır. Ötən ilin dekabr ayı üzrə inflyasiya riskləri balansında baş verən dəyişikliklərin təhlili artırıcı risklərin nisbətən səngidiyini göstərir. Bununla belə, geosiyasi gərginliklər və qlobal ticarət mühitindəki qeyri-sabitlik əmtəə və maliyyə bazarları ilə bağlı qeyri-müəyyənlikləri hələ də yüksək səviyyədə saxlayır. Əsas xarici risk idxal qiymətlərinin daxili inflyasiyaya ötürülməsi ilə bağlıdır. Bu risk ticarət tərəfdaşlarında inflyasiya prosesləri və nominal effektiv məzənnənin dinamikasından asılı olacaqdır. Daxili risk faktorları isə əsasən təklif - xərc amilləri hesabına formalaşmaqdadır. Bütün bu sabit gözləntilərə baxmayaraq, inflyasiya ilə mübarizə tədbirləri prioritet faktor kimi diqqətdə saxlanılacaq və iqtisadi siyasətin əsas çərçivə hədəflərinə uyğun olaraq bütün iqtisadi qurumlar bu prosesə cəlb edəcək. 2026-cı ildə inflyasiya ilə mübarizə strategiyası çərçivəsində əvvəlki kursa uyğun addımlar atılacaq, inflyasiyanın əhalinin alıcılıq qabiliyyətinə və real gəlirlərinə mənfi təsirlərinin azaldılması əsas vəzifələrdən biri kimi xüsusi diqqət mərkəzində saxlanılacaq.

***E. CƏFƏRLİ***

# Növbəti qurban...

## Mina terroru davam edir

**Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Ermənistanın mina terroru hələ də davam edir.**

### Bu dəfə Suqovuşan yaxınlığında...

Belə ki, işğaldan azad edilmiş Ağdərə rayonunun Suqovuşan qəsəbəsi yaxınlığında aprelin 1-də mina hadisəsi baş verib. Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyinin (ANAMA) birgə məlumatında bildirilib ki, Ağdərə rayonunun Hacıqərvənd kənd sakini 1982-ci il təvəllüdlü Məhərrəmov Mahir Abdulla oğlu keçmiş təmas xəttində minalardan təmizlənməmiş ərazidə piyadaəleyhinə mina partlayışı nəticəsində sağ ayağından xəsarət alıb. Faktla bağlı Tərtər rayon Prokurorluğunda araşdırma aparılır. “ANAMA, DİN və Baş Prokurorluq bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa, bələd olmadıqları ərazilərə daxil olmamağa, çəpərləmə fəaliyyəti aparılan ərazilərə müdaxilə etməməyə çağırır”, - deyə məlumatda qeyd olunub.

Bundan əvvəl isə mina hadisəsi martın 26-da Ağdam rayonunda baş vermişdi. Belə ki, hadisə rayonun Yusifcanlı kəndi ərazisində olub. Yusifcanlı kənd sakini Abbasov Ceyhun Firdovsi oğlu keçmiş təmas xəttində minalardan təmizlənməmiş ərazidə piyadaəleyhinə mina partlayışı nəticəsində sol ayağından xəsarət alıb.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsindən sonra artıq 400 nəfərdən çox Azərbaycan vətəndaşı Ermənistanın mina terrorunun qurbanına çevrilib. Bu, yalnız fiziki deyil, həm də insanların psixoloji və sosial baxımdan dərindən təsirləndiyi ciddi bir problemdir. İşğal dövründə ərazilərimizə basdırılmış minalar regionda qalıcı sülhün bərqərar olmasına ciddi təhdid yaradır. Bu təhlükənin qarşısının alınması üçün beynəlxalq əməkdaşlıq və yardımlar olduqca vacibdir. Eyni zamanda, Ermənistanın minalarla çirkləndirdiyi ərazilərdəki humanitar vəziyyətin ciddi şəkildə nəzərə alınması və Ermənistanın beynəlxalq hüquq çərçivəsində məsuliyyətə cəlb edilməsi aidiyyəti beynəlxalq qurumlar qarşısında da mühüm bir öhdəlik olaraq qalmaqdadır. Minaların məqsədli şəkildə basdırılması insan hüquqlarının ciddi şəkildə pozulmasına, regionda sülhün və təhlükəsizliyin bərpasını çətinləşdirməyə səbəb olur.




### Problem qayıdış prosesinə əngəl yaradır

Digər tərəfdən, ərazilərimizdə basdırılmış minalar və partlamamış hərbi sursatlar işğaldan azad edilmiş bölgədə bərpa və yenidənqurma işlərinin icra edilməsinə, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qayıdışına və bu torpaqlarda yaşayışına ciddi maneə törədir. Ermənistan tərəfindən 30 ilə yaxın işğal dövründə basdırılmış minaların dəqiq xəritələrinin təqdim olunmaması isə onların beynəlxalq hüquqa və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmətsizliyini hələ də açıq şəkildə nümayiş etdirməkdədir. Xüsusilə, mina qurbanlarının sayının artmasının əsas səbəblərindən biri Ermənistanın üzərinə götürdüyü öhdəliyə zidd olaraq dəqiq mina xəritələrini ölkəmizə verməməsidir.

Məlumdur ki, müharibə başa çatandan sonra Ermənistan mina xəritələrinin bir hissəsini Azərbaycan tərəfinə təhvil vermişdi. Lakin araşdırmalar nəticəsində məlum oldu ki, erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür. Rəsmi Bakı dəfələrlə Ermənistana düzgün xəritələrin verilməsi ilə bağlı çağırış edib. Nəzərə almaq lazımdır ki, mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, insanlıq əleyhinə törədilən cinayətdir. Ermənistanın minaları təmas xəttindən kənarda da basdırmasının məqsədi mülki insanların daha çox itki verməsi məqsədi daşıyır. Hazırda azad olunmuş ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Həmin ərazilərdə mina qurbanı olanlar da daha çox quruculuq işləri ilə məşğul olan mülki şəxslərdir. Bu fakt bərpa işlərinin daha sürətli aparılmasına ciddi əngəl törədir. Ona görə də, müvafiq beynəlxalq təşkilatlar, bütövlükdə dünya ictimaiyyəti Azərbaycanın çağırışlarına adekvat cavab verməli və bütünlüklə, dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi üçün rəsmi İrəvana təzyiq göstərilməlidir.

### Beynəlxalq birlik biganə qalmamalıdır!

Ölkəmiz beynəlxalq ictimaiyyəti mütəmadi olaraq Ermənistanın mina terror barədə məlumatlandırır, müxtəlif platformalar çərçivəsində bu yöndə tədbirlər keçirir. Məqsəd beynəlxalq birliyinin diqqəti problemin həllinə yönəltməkdir. Bütün bunları nəzərə alaraq, beynəlxalq ictimaiyyət minatəmizləmə fəaliyyətlərinin təxirəsalınmazlığını qəbul etməli, Azərbaycanın davam edən minatəmizləmə səylərinə dəstək olmalıdır. Çünki sözügedən ərazilər minalarla həddən artıq çirkləndirilib. Müsbət haldır ki, ölkəmizin dostları bu istiqamətdə öz dəstəyini göstərir. Bütün bunlarla yanaşı, müvafiq beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycana qarşı davam etdirilən mina terroruna biganə qalmamalıdır.

***Nardar BAYRAMLI***

# Zəngəzur dəhlizi (TRIPP) ləngiyə bilər?

## Dəhliz qlobal iqtisadi münasibətlər sisteminə yeni nəfəs vəd edir

Cənubi Qafqazda reallaşdırdığımız sülh prosesinin və sabitliyin əsas təməl daşlarından sayılan Zəngəzur dəhlizi (TRIPP) qlobal iqtisadi əlaqələr sisteminin ən yeni amili kimi gündəmdən böyük marağa səbəb olur. Kontent olaraq Şərq ilə Qərbi birləşdirəcək, amma mahiyyət olaraq 4 cəhətli qlobal qovşaq sayılacaq bu dəhliz yeni dövrün iqtisadi atlasını formalaşdırır. Bakının ideya müəllifliyi ilə ərsəyə gələn layihə ötən ilin avqustunda Vaşinqtonda özünün beynəlxalq təsdiqini tapdı. Hətta ABŞ yolun bərpası və yenilənməsi üçün maliyyə dəstəyini də ifadə edib - ötən ilin payızında Vaşinqton TRIPP layihəsinin həyata keçirilməsi üçün Ermənistana 145 milyon dollar yardım ayırmaq niyyətində olduğunu bildirib. Bu ilkin tranş prosesin uğurla irəliləməsi üçün həm maddi stimul, həm də siyasi dəstəkdir.

Amma son baş verənlər, xüsusilə Yaxın Şərqdə davam edən müharibə Zəngəzur dəhlizi (TRIPP) layihəsi ilə də bağlı müəyyən fərqli fikirlərin meydana çıxmasına səbəb olub. Dəhlizin keçəcəyi coğrafiyaya yaxın regionda gedən münaqişənin və digər proseslərin nəticəsinin təsir imkanları araşdırılır.

Bir çox siyasətçilər ABŞ administrasiyasının müharibə dövründə dəhlizlə bağlı hər hansı bir anons və ya fikir bildirməməsini əsas götürərək hətta Vaşinqtonun “taym aut” götürdüyü fikrinə də düşür. Başqa sözlə, Tramp administrasiyasının sükuta qərq olması dəhliz ətrafında da bir çox suallar yaradıb. Hətta Qərb politoloqları prosesin inkişaf tempinin fərqli ssenarilər üzrə inkişaf etmək ehtimalını irəli sürürlər.

**Müharibənin sonu, inkişafın başlanğıcı...**

Sirr deyil ki, hələ dəhlizlə bağlı müzakirələrin başladığı dövrdə İran bu dəhlizi “qırmızı xətt” adlandırır, reallaşmasının mümkünsüzlüyünü önə çəkirdi. İran bunu özünün geoiqtisadi və təhlükəsizlik maraqları ilə əsaslandırırdı. Guya, bu dəhliz reallaşarsa, İranın Ermənistan üzərindən Avropaya çıxış imkanları zəifləyə və regiondakı tranzit üstünlüyü azala bilərdi. Sonradan ölkədə müəyyən siyasi dəyişikliklərin baş verməsi (Pezeşkianın prezident seçilməsi) Tehranın məsələyə baxışına da təsir göstərdi - artıq “qırmızı xətt” anlayışı aradan qalxmış, dəhlizə münasibət “nəqəliyyat logistik keçid” statusu qazanmışdı. Amma nəzərə alınmalıdır ki, bu müharibədən öncə idi. İndiki halda, müharibənin nəticəsi üzərindən yanaşsaq, mövqenin necə olacağını tam proqnozlaşdırmaq mümkün deyil. Müharibənin nəticəsi olaraq meydana çıxa biləcək ilkin ssenari Tehranın regional təsir imkanlarının zəifləməsi ola bilər. İndiki halda halda İran əsas diqqətini daha cənuba - əsas ticari rəqabət apardığı Körfəz ərazisinə transformasiya edə bilər. Bu isə Cənubi Qafqaz istiqamətində mümkün müdaxilə imkanlarını məhdudlaşdıra bilər. Analitiklər qeyd edir ki, belə vəziyyətdə Tehran əvvəlki “qırmızı xətt”lərini daha da yumşaltmaq məcburiyyətində qala bilər. Bu ssenari Azərbaycanın və Türkiyənin strateji təşəbbüslərini sürətləndirməsinə şərait yaradar. Ermənistan isə böyük güclərin balans siyasətindən daha çox asılı vəziyyətə düşər. ABŞ və Qərb aktorları da regionda yeni kommunikasiya xətlərinin açılmasını dəstəkləyərək İranın təsirini balanslaşdırmağa çalışa bilər. Nəticə etibarilə, analitiklər İranın müharibədən sonrakı dövrdə təbii olaraq başının daxili böhrana qarışmasını Zəngəzur dəhlizinin (TRIPP) diplomatik və ya “yumşaq güc” vasitələri ilə reallaşması üçün nadir fürsət pəncərəsi kimi dəyərləndirir.

**Uzunmüddətli eskalasiyanın təsiri**

Qərb politoloqları ikinci ssenarini eskalasiyasiyanın uzunmüddətli olması proqnozu üzərindən dəyərləndlirirlər. Belə ki, müharibənin coğrafiyasının genişlənməsi, ətrafdakı böyük iqtisadi-siyasi mərkəzlərin də müharibəyə cəlbi Zəngəzur




dəhlizi məsələsini (TRIPP) lokal layihədən çıxaraq böyük güclərin qarşıdurma platformasına da çevrilə bilər. Sirr deyil ki, ABŞ-ın “xeyir-duası” ilə beynəlxalq təsdiqini əldə etmiş bu dəhliz həm Avropanın, həm də digər böyük güclərin diqqətindədir. Hətta müəyyən bir dövrdə bu istiqamətdə “səssiz mübarizə”nin getdiyi də qeyd olunur. Eskalasiyanın genişlənməsi isə həm Zəngəzur dəhlizini (TRIPP), həm də yeni ticari konfiqurasiyanı gecikdirə bilər - yaranmasına manne olmaz, yalnız gecikdirə bilər. Çünki Zəngəzur dəhlizi (TRIPP) yeni gələcək üçün “biletdir”. Və heç bir dövlət də bu bileti asanlıqla “qaytarmaq” niyyətində olmayacaq

Bu proses əksinə də inkişaf edə bilər - yəni, ABŞ dəhlizə qarşı təhlükə hiss edəcəyi anda prosesi tələsdirməyə niyyətlənə bilər. Bu isə nəticə etibarı ilə Şərq-Qərb kontentinin aparıcı xətti sayılacaq dəhlizin daha tez reallaşmasına yol aça bilər. Təbii ki, burada sülh amili də öz işini görəcək - ən yaxın zamanda Ermənistan ilə Azərbaycan arasında imzalanacaq sülh dəhlizin açılması üçün ən real stimul sayılacaq.

**Sabitlik üçün nəticə....**

Nəhayət, prosesin uzunmüddətli “dalan və dondurulmuş proses” halına düşməsi ssenarisi - siyasi şərhçilərin düşüncəsinə görə, Zəngəzur dəhlizi üçün ən real “ləngimə təhlükəsi”məhz bu ssenaridir. Yaxın Şərqdə baş verənlərin fonunda proses qeyri-müəyyən nəticəli olarsa, Zəngəzur dəhlizi (TRIPP) də uzun müddət dalana dirənə bilər.

Bu ssenari artıq müəyyən mənada mövcud reallığın davamı kimi qiymətləndirilə bilər. Analitik yanaşmalara görə, tərəflər arasında razılıq əldə olunmadığı proses uzanır və “nə müharibə, nə sülh” vəziyyəti yaranır (biz 30 il ərzində bunu real olaraq yaşamışıq). İranın da məhz ABŞ ilə masa mübarizəsində diplomatik üstünlük əldə etmək üçün dəhliz amilindən istifadə etməsi mümkün olar. Bu ssenarinin əsas xüsusiyyəti qeyri-müəyyənlikdir. Dəhliz nə tam reallaşır, nə də gündəmdən çıxır. Eyni zamanda, regionda iqtisadi əməkdaşlıq potensialı istifadə olunmadan dondurulma təhlükəsi yaşayır.

**Konsensus və “geoiqtisadi transformasiya”: ən optimal ssenari...**

Siyasət adamları ən optimist ssenari kimi ABŞ-İran qarşıdurmasının müəyyən mərhələdən sonra diplomatik kanallarla yumşalması və böyük güclər arasında yeni balansın formalaşmasını gözdən keçirir. Bu halda Zəngəzur dəhlizi (TRIPP) daha genişmiqyaslı regional əməkdaşlıq layihəsinə çevrilə bilər. Belə yanaşmada dəhliz yalnız Azərbaycan və Türkiyə, eləcə də Ermənistan üçün deyil, hətta İran üçün iqtisadi dividendlər vəd edən layihə kimi təqdim olunur. Məlumatlara görə, bu dəhliz gələcəkdə böyük ticarət dövriyyəsi yarada bilər və region ölkələrinə ciddi iqtisadi fayda gətirə bilər. Ermənistan üçün bu layihə iqtisadi təcriddən çıxış imkanı yarada bilər, İran isə alternativ marşrutlar və paralel layihələr vasitəsilə öz maraqlarını qoruya bilər. Bu ssenaridə əsas şərt təhlükəsizlik zəmanətləri, beynəlxalq nəzarət mexanizmləri və tərəflər arasında qarşılıqlı etimadın formalaşmasıdır. Nəticədə, Zəngəzur dəhlizi (TRIPP) geniş geoiqtisadi inteqrasiya platformasına çevrilə bilər. Bu isə Cənubi Qafqazda uzunmüddətli sabitlik üçün əsasdır.

**Ermənistan seçkiləri - revanşist mövqenin yaratdığı təhlükə**

Dəhlizlə bağlı mühüm bir ssenari isə Ermənistanla bağlıdır. Bu ölkədə baş tutacaq parlament seçkilərinin nəticəsi də dəhlizlə bağlı müəyyən gecikmə formalaşdıra bilər. Bəlli olduğu kimi, hazırkı iqtidar, baş nazir Nikol Paşinyan Zəngəzur dəhlizinin (TRIPP) açılmasına isti yanaşır. Vaşinqton sənədlərinə imza atmaqla Paşinyan özünün mövqeyini açıq şəkildə ortaya qoyub. Amma onun rəqibi olan digər şəxslərin fərqli güc mərkəzlərinin nəzarətində olmasını göz önünə gətirsək, vəziyyətin dəyişmə ehtimalı da yarana bilər. Daha çox revanşist mahiyyətə malik olan və digər siyasi mərkəzlərin direktivləri əsasında hərəkət edən bu namizədlərin prosesə mənfi yön vermə ehtimvlı da mümkündür.

**Real birləşdirici mexanizm...**

Azərbaycanın hər bir halda mövqeyi bəlli və dəyişməzdir - Zəngəzur dəhlizi (TRIPP) mütləq açılacaq. Çünki bu dəhliz iqtisadi dividensiya ilə yanaşı həm də bizim üçün mühüm nəqliyyat bağlantı imkanıdır. Azərbaycan məhz bu dəhliz üzərindən Naxçıvan ilə əlaqəlsini quracaq. Nəticə etibarı ilə, Zəngəzur dəhlizi Azərbaycan üçün milli maraqların təminatı, region üçün sabitlik və inkişaf, dünya üçün isə yeni ticari yol deməkdir. Bu dəhliz həm iqtisadi, həm siyasi, həm də geostrateji baxımdan Cənubi Qafqazın gələcəyini müəyyənləşdirən əsas layihədir. Azərbaycanın qətiyyətli siyasəti nəticəsində reallaşan bu təşəbbüs Türk dünyasını birləşdirməklə, regionun qlobal iqtisadiyyata inteqrasiyasını gücləndirməklə yanaşı, beynəlxalq əməkdaşlığa yeni nəfəs gətirəcək....

***P.İSMAYILOV***

# Açıq mesaj: seçki gərgin keçəcək...

## Paşinyanın Moskva səfərində razılıq əldə olundumu?

Ermənistanın baş naziri Nikol Paşinyanın 6 aylıq aradan sonra yenidən Moskvaya səfəri bir çox məqamları ilə müzakirə predmeti oldu. Siyasi şərhçilərin də bildirdiyi və gözlənildiyi kimi, müzakirələr heç də ikitərəfli münasibətlər kontekstində məhdudlaşmadı. Xüsusilə, Rusiya ilə Ermənistan arasındakı bəzi qaranlıq məsələlərin masa üzərinə qoyulması diqqət çəkdi. Müzakirələr sakit tonda aparılsa da, gərginlik seçilən sözlərdən və ya fikirlərdən açıq şəkildə bəlli olur, narazılıq ritorika ilə ortaya qoyulurdu.

**"Qarabağ hərəkatı" bitdi...**

Maraqlıdır ki, hər iki ölkənin razılıqla qarşıladığı və əlavə mənfi notların müşahidə olunmadığı məqamlardan biri Ermənistan ilə Azərbaycan arasındakı sülh prosesi oldu. Rusiya Prezidenti Vladimir Putin bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın səyləri sayəsində iki ölkə arasında münasibətlər sabitləşib. N.Paşinyan öz növbəsində qeyd edib: "Qarabağla bağlı məsələlərə gəldikdə, mən artıq Ermənistan Respublikasında çox şəffaf və açıq şəkildə bəyan etmişəm ki, biz Qarabağ hərəkatını davam etdirməməliyik, çünki Ermənistan ilə Azərbaycan arasında artıq sülh bərqərar olub". Onun sözlərinə görə, Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü, siyasi müstəqilliyini və suverenliyini tanıyıblar.

Ermənistanın Baş naziri bu mövqeyin 1991-ci il Almatı Bəyannaməsinə əsaslandığını vurğulayıb. "Bu o deməkdir ki, biz qarşılıqlı şəkildə müstəqil Ermənistanın Sovet Ermənistanı ilə 100 faiz, müstəqil Azərbaycanın isə Sovet Azərbaycanı ilə 100 faiz eyni olduğunu qəbul edirik", - deyə o bildirib.

N.Paşinyan bunu sülhün daha da irəliləməsi üçün möhkəm təməl adlandırıb: "Düşünürəm ki, bu, sülhün daha da inkişafı üçün kifayət qədər möhkəm təməldir". O, həmçinin Rusiya tərəfinə Bakı ilə İrəvan arasında münasibətlərin normallaşdırılması prosesinə kömək etdiyinə görə təşəkkür edərək bildirib: "Siz də şəxsən Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində əsas, çox vacib rol oynamısınız və indi də bunu davam etdirirsiniz".

Göründüyü kimi, Paşinyan illərlə ən yaxın müttəfiqi olduğu ölkənin paytaxtında da öz mövqeyini təkrarlayır. Bu isə, Azərbaycanın bölgədə son 6 ildə yaratdığı yeni siyasi konfiqurasiyanın, reallıqların həm İrəvanda, həm də Moskvada qəbul olunduğunu deməyə əsas verir. Bakı artıq suverenlik məsələsinin və ya Qarabağa aid hər hansı bir başqa məsələnin bu və ya digər şəkildə, eləcə də bu və ya digər məkanlarda müzakirəsini bitirir. Verilən mesajın mahiyyətində dayanan amil isə yenə də "sülh hər şeydən yaxşıdır" tezisidir.

**KTMT məsələsi hələ də açıq qalır...**

Rusiya ilə Ermənistan arasında son illərdə formalaşan narazılıqların motivləri fərqlidir. Bununla belə "siyahıya" KTMT məsələsi də daxildir. Bəlli olduğu kimi, artıq bir neçə ildir ki, İrəvan kollektiv təhlükəsizlik mexanizmində iştirakdan boyun qaçırır - hətta bir müddət öncə, KTMT-də fəaliyyətini dayandırdığını bəyan edib. İrəvan qurumun iclaslarında iştirak etmir, üzvlük haqqı ödəmir. Bu isə təşkilatın əsas söz sahibi olan Rusiyanı qıcıqlandırır. Dəfələrlə Rusiya dövlət və hərbi xadimləri Ermənistanın bu addımlarının anlaşılan olmadığını bildiriblər. Paşinyan isə səbəb kimi, Azərbaycanla Ermənistan arasındakı döyüşlər zamanı KTMT-nin mövqeyini əsas gətirir. Moskva səfəri zamanı bu məsələ də müzakirə predmeti olub. Belə ki, Ermənistanla Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı arasında yaranmış gərginlik yenidən gündəmə gəlib. Ermənistanın baş naziri Nikol Paşinyan ölkəsinin təşkilatın fəaliyyətində iştirak etməməsinin əsas səbəbini açıqlayıb. Onun sözlərinə görə, rəsmi İrəvan erməni cəmiyyətinə KTMT-nin Qarabağ məsələsində niyə müdaxilə etmədiyini izah etməkdə çətinlik çəkir. Paşinyan bildirib ki, məhz bu məsələ Ermənistan daxilində təşkilata qarşı etimadsızlığı artırıb və siyasi narazılıq yaradıb. Mövzu ilə bağlı danışan Rusiya Prezidenti Vladimir Putin isə fərqli mövqe ortaya qoyub. O qeyd edib ki, Ermənistan 2022-ci ildə Praqa görüşündə Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu tanıyıb.



Putinin sözlərinə görə, bu qərardan sonra Qarabağ məsələsi artıq Azərbaycanın daxili işi kimi formalaşıb və belə bir vəziyyətdə KTMT-nin prosesə müdaxiləsi "tamamilə qeyri-korrekt" sayılır.

Qeyd edək ki, 2022-ci ilin oktyabrında Praqada keçirilən "Avropa Siyasi Birliyi" Zirvə Toplantısı çərçivəsində keçirilən görüşün ardından qəbul edilmiş birgə bəyanatda Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyü və suverenliyini tanımışdı və bu xüsusda BMT Nizamnaməsi əsas sənəd kimi götürülmüşdü. Bu, faktiki olaraq İrəvanın Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiqləməsini ortaya qoyurdu. Suverenliyi tanımaqla Ermənistan Azərbaycanın Qarabağ üzərində hakimiyyətini tanımış olmuşdu.

Ermənistanın KTMT "incikliyinin" əsasında dayanan amil isə müharibədən sonrakı dövrdə təşkilatın İrəvana rəsmi yardım etməməsi olmuşdu. Hətta 2023-cü ilin yayında İrəvan öz "mövqeyini ifadə etmək üçün" KTMT monitorinq missiyasının ölkəsinə gəlməsinə qarşı "embarqo" tətbiqinə əl atmışdı. Qarabağ məsələsinin bitməsi, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşması isə İrəvanın KTMT ilə bağlı mövqeyini daha fərqli motivlər üzərindən izah etmək məcburiyyətində qoyur - beləliklə, KTMT məsələsi də yaxın zamanda Moskva-İrəvan müzakirələrinin əsas predmeti kimi ön plana çıxacaq. Rusiya prezidentinin məsələ ilə bağlı anonsu da bunu təsdiqləyir.

**Bakının qurduğu yeni iqtisadi konfiqurasiya...**

Müzakirələrdə diqqət çəkən bir başqa məsələ isə yeni iqtisadi əlaqələrin qurulması ilə bağlı idi. Maraqlıdır ki, Putin Paşinyanın seçdiyi "Qərb yolu"nu açıq kontekstdə hədəfə almasa da, Ermənistana "xəbərdarlıqlarını" çatdırdı. Rusiya prezidenti Ermənistanın Avropa İttifaqı ilə münasibətlərin inkişaf etdirilməsi barədə müzakirələri müşahidə etdiklərini dedi. İlkin olaraq, bununla bağlı rahat olduqlarını, istənilən ölkə üçüncü ölkələrlə əməkdaşlıqdan maksimum fayda əldə etməyə çalışmanın anlaşılan olduğunu söyləsə də, Rusiya Prezidenti İrəvanı gözləyən "sürprizi" də yaddan çıxarmadı: "Avropa İttifaqı və Avrasiya İqtisadi İttifaqı ilə gömrük ittifaqında olmaq mümkün deyil; nizamnaməsinə görə bu, sadəcə mümkün deyil. Və məsələ hətta siyasi deyil, sırf iqtisadi məsələdir. Çünki bəzi şeylər illər ərzində aparılmalı olan geniş birgə iş tələb edir".

Maraqlıdır ki, Rusiya Prezidenti məsələni daha çox qeyri-siyasi mahiyyətlə izah etdi - bildirdi ki, Rusiyada və Aİ ölkələrində tamamilə fərqli, çox fərqli fitosanitar tələblər var. Bununla belə yenə də "mesaj" çatdırıldı: "Bir gün, bəlkə də illər sonra, biz, Avrasiya İqtisadi Birliyi və Avropa Birliyi - ümid edirəm ki, bu, sonda belə olacaq; axı eyni qitədə yaşayırıq - onları həll edə biləcəyik. Lakin Ukrayna böhranından əvvəl, avropalılarla birlikdə işləmək barədə razılığa gəlməyə çalışdığımız zaman belə, heç bir nəticə alınmadı. Onlar mənə o vaxt göründüyü kimi, demək olar ki, hər məsələdə, hətta ən kiçik məsələdə də çox sərt mövqe tuturlar".

Bununla belə, regional iqtisadi əlaqələrin inkişafı olduqca perspektivli sayıla bilər. Burada da Azərbaycan amili özünü göstərir - Bakının yaratdığı yeni iqtisadi-ticari nizam bütövlükdə region ölkələri üçün yeni bir gündəm formalaşdırıb. Paşinyan Azərbaycan üzərindən həyata keçirilən nəqliyyat əlaqələrinin Ermənistan-Rusiya iqtisadi münasibətlərinə müsbət təsir göstərdiyini etiraf edib. Onun sözlərinə görə, dəmir yolu daşımalarının bərpası və genişlənməsi regionda iqtisadi əlaqələrin canlanmasına səbəb olur və bu proses Ermənistan üçün yeni imkanlar yaradır. Görüş zamanı Paşinyan Putinə Azərbaycanla münasibətlərin normallaşmasına göstərdiyi dəstəyə görə təşəkkür edib və sülh prosesinin əhəmiyyətini vurğulayıb.

Beləliklə, Bakının iqtisadi sabitləşdirici faktor missiyasının uğuru bir daha təsdiqlənib. Hətta qitələrarası qlobal iqtisadi anlaşılmazlıqların fonunda Azərbaycanın bölgədə yaratdığı münbit şərait iqtisadi tarazlığın qorunmasına olduqca müsbət təsir göstərir.

**Rusiya pasportlu "namizəd"...**

Nəhayət, gözlənildiyi kimi müzakirə predmetlərinin önə çıxan digər məqamı seçkilərlə bağlı olub. Bəlli olduğu kimi, iyunda keçiriləcək parlament seçkisi öncəsi Paşinyanın əsas rəqibi məhz "Rusiyanın adamı" kimi dəyərləndirilən, 9 aydır ki, ev dustaqlığı həbsində olan oliqarx Samvel Karapetyandır. Karapetyanın "Rusiyanın adamı" kimi dəyərləndirilməsinin əsas səbəbi isə onun Rusiya vətəndaşı olmasıdır. Karapetyanın seçkiöncəsi kampaniyada əsasən maddi resurslardan istifadə etməsi isə onu bir addım önə çıxarıb. Belə ki, Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə Komitəsi "işçi" adı altında seçicilərə pul paylandığını aşkarlayıb. Paşinyan isə bunun arxasında Karapetyanın dayandığını bəyan edib. Paşinyanın çəkindiyi digər bir təhlükə isə 102-ci Hərbi Bazada yerləşən xüsusi təyinatlıların seçkiyə müdaxilə variantıdır. Belə ki, Rusiya qanunlarında edilən dəyişikliklər bu bazanı Karapetyanın "hüquqlarının müdafiəçisi"nə çevirə bilər.

Putin çıxışında məhz Karapetyana işarə vuraraq bildirib ki, "Biz çox istərdik ki, bütün bu siyasi partiyalar və siyasətçilər seçkilər zamanı bu daxili siyasi işlərdə iştirak edə bilsinlər. Bilirəm ki, bəziləri Rusiya pasportlarına baxmayaraq həbsdədir. Bu sizin qərarınızdır; biz müdaxilə etmirik, amma istərdik ki, hamısı heç olmasa bu daxili siyasi işlərdə iştirak edə bilsin".

Paşinyan isə cavabında qeyd edib ki, qarşıda dayanan parlament seçkiləri, parlament üzvləri seçkiləri və bu seçkilərin nəticələrinə əsasən, Baş nazirin seçkisidir: "Diqqətinizi yalnız Ermənistan pasportuna malik vətəndaşların bu seçkilərdə iştirak edə biləcəyinə yönəltmək istərdim. Ermənistan Respublikasının Konstitusiyasına görə, Rusiya pasportuna malik insanlar parlamentə və ya baş nazirliyə namizəd ola bilməzlər. Beləliklə, burada heç bir məhdudiyyət yoxdur".

Beləliklə, seçki zamanı vəziyyətin kritik ola biləcəyi ehtimalı artmaqdadır. Paşinyanın Rusiya pasportuna malik Karapetyanın bu marafonda qanuni şəkildə iştirakının qarşısını alacağı isə indidən aydındır...

*SADİQ*

# Rusiya-Ukrayna müharibəsi - "Pasxa atəşkəsi" olacaqmı?

Yaxın Şərqdə münaqişənin davam etməsi nəticəsində Rusiya-Ukrayna müharibəsinin həlli ilə bağlı aparılan danışıqlar arxa plana keçib. Çünki hazırda ABŞ-ın İsraillə birlikdə İrana qarşı müharibə aparması Ukrayna probleminə daha çox diqqət ayrılmasını mümkünsüz edir. Xatırladaq ki, Donal Tramp yenidən hakimiyyətə gəldikdən sonra bu müharibəni həll edəcəyini vəd etmişdi. Tramp bunun üçün diplomatik fəallığı artıraraq tərəflər arasında vasitəçilik edib. Belə ki, Vaşinqtonun təşəbbüsü ilə Rusiya və Ukrayna nümayəndələrinin dəfələrlə görüşü keçirilib.

## Danışıqların gələcəyi sual altındadır

Rusiya, Ukrayna və ABŞ-nin iştirakı ilə üçtərəfli danışıqların birinci mərhələsi yanvarın 23-24-də, ikinci raundu isə fevralın 4-5-də Əbu-Dabidə keçirilib. Danışıqların üçüncü raundu isə fevralın 17-18-də Cenevrədə baş tutub. Növbəti raundun fevralın 26-da keçirilməsi qərara alınsa da, sonradan martın əvvəlinə kimi təxirə salınmışdı. Lakin bu da baş vermədi. ABŞ-ın İranla müharibəyə başlaması danışıqlar prosesinin gələcəyini sual altına qoyub. Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) rəhbəri Con Retkliff Senatın kəşfiyyat komitəsindəki dinləmələr zamanı "ABŞ İrandakı eskalasiyaya baxmayaraq, Rusiya ilə qarşıdurma şəraitində Ukraynanın bundan sonra da dəstəklənmək niyyətindədir" desə də, reallıq ortadadır. Təsadüfi deyil ki, bu yaxınlarda Kremlin sözçüsü Dmitri Peskov Rusiya və Ukrayna arasında Birləşmiş Ştatların vasitəçi qismində iştirakı ilə üçtərəfli danışıqlar prosesinin dayandırıldığını bildirib. Onun sözlərinə görə, Ukrayna ilə bağlı danışıqlarda yaranan fasilə ABŞ nümayəndələrinin digər beynəlxalq məsələlərlə, o cümlədən Yaxın Şərqdəki vəziyyətlə məşğul olması ilə əlaqədardır. O deyib ki, mövcud şəraitdə ABŞ üçtərəfli danışıqlarda fəal iştirak edə bilmir. Eyni zamanda, Peskov diqqətə çatdırıb ki, münaqişənin aktiv mərhələsinin dayandırılması üçün əsas şərt Kiyevin Ukrayna qoşunlarını Donetsk vilayətinin sərhədlərindən kənara çıxarmaq barədə qərar qəbul etməsidir. Onun fikrincə, müvafiq qərar dərhal qəbul olunmalıdır: "Moskva hesab edir ki, bu, insanların həyatının qorunmasına və döyüşlərin dayandırılmasına kömək edə bilər". Artıq Rusiya Müdafiə Nazirliyi Ukraynanın Luqansk vilayətinin bütün ərazisinin ələ keçirildiyini açıqlayıb.



## Ukrayna Donetsk vilayətini təhvil verəcəkmi?

Lakin Peskovdan bir gün əvvəl Ukrayna Prezidenti Volodimir Zelenski bildirmişdi ki, Rusiya tərəfi Ukrayna Silahlı Qüvvələrinin iki ay ərzində Donbasdan çıxarılmasında təkid edir. Zelenski bu barədə "X" sosial şəbəkəsində yazıb: "Hazırda Rusiya bir daha ABŞ tərəfinə cəbhədəki məqsədlərinə çatmaq üçün yeni müddətlər səsləndirir. Mən təəccüblənirəm ki, buna necə inanmaq olar. Ruslar deyirlər ki, iki ay ərzində Donbası ələ keçirəcəklər. Guya Ukraynanın çıxmaq üçün iki ay vaxtı var və onda müharibə bitəcək. Amma əgər Ukrayna iki ay ərzində çıxmasa, o zaman Rusiya Donbası ələ keçirəcək və daha sonra başqa şərtlər irəli sürəcək. Məntiqi sual yaranır: əgər onların məqsədi yalnız Donbasdırsa, niyə daha irəli gedəcəklərini və sonra başqa şərtlərin olacağını deyirlər? Yəni söhbət heç də yalnız Donbasdan getmir. Onların məqsədləri bizə aydındır". Onun sözlərinə görə, Rusiya Silahlı Qüvvələri iki ay ərzində heç nəyi ələ keçirə bilməyəcəklər və bunu çox yaxşı başa düşürlər: "Onlar təzyiq göstərirlər. Bu gün Rusiya ABŞ-yə təzyiq edir, çünki aralıq seçkiləri yaxınlaşır".

Zelenski belə bir şəraitdə Pasxa bayramı münasibətilə atəşkəsin elan olunmasını təklif edib. O ümid edib ki, ABŞ Kiyev və Moskva arasında Pasxa atəşkəsi təklifini dəstəkləyəcək. Pasxa bayramı aprelin 12-də başlayır və beş gün davam edəcək. "Ümid edirəm ki, ABŞ qətiyyətli qalacaq və Rusiyanı üçtərəfli görüşə qoşulmağa və sülh bağlamağa inandırmağa kömək edəcək. Mən bunu demişəm və bu gün də təkrar edirəm: biz Pasxa bayramı günlərində atəşkəs təklif etdik. Ümid edirik ki, ABŞ bunu dəstəkləyəcək. Biz Rusiyadan cavab gözləyirik", - deyə o söyləyib.

Yeri gəlmişkən, "Bloomberg" agentliyi öz mənbələrinə istinadla yazır ki, ABŞ administrasiyası müttəfiq ölkələrin rəhbərliyinə Rusiya və Ukrayna arasında danışıqların yeni mərhələsinin təşkilini mümkün hesab etdiyini bildirib. Məlumata görə, tərəflərin mövqelərində ciddi fərqlər səbəbindən danışıqlar prosesi müvəqqəti olaraq dalana dirəndiyi üçün ABŞ bu məsələdə heç bir konkret irəliləyiş görmədiyini qeyd edib. Agentlik onu da vurğulayır ki, hazırda Ağ Ev administrasiyasının bütün diqqəti İrana qarşı hərbi əməliyyata yönəlib.

## Tramp Ukraynaya silah tədarükünü dayandıra bilər

Digər tərəfdən, ABŞ Prezidenti Donald Tramp Avropa müttəfiqlərinin Hörmüz boğazı vasitəsilə gəmiçiliyin bərpası üçün koalisiyaya qoşulmaqdan imtina edəcəyi təqdirdə Ukraynaya silah tədarükünü dayandıracağı ilə hədələyib. Bu barədə "Financial Times" (FT) qəzeti mənbələrə istinadən yazıb. Tramp ötən ay NATO-nun hərbi dəniz qüvvələrindən boğaz vasitəsilə gəmiçiliyi bərpasında ona kömək olunmasını tələb edib, lakin münaqişəyə cəlb olunmaq istəmədiklərini bildirən Avropa liderlərindən rədd cavabı alıb. Mənbələrin məlumatına görə, ABŞ lideri cavab olaraq Aİ ölkələri tərəfindən maliyyələşdirilən və NATO-nun Ukrayna üçün silah alışı proqramı olan PURL çərçivəsində tədarükləri dayandıracağı ilə hədələyib. Tramp ABŞ-nin İrana qarşı müharibəsinə kömək etmək üçün daha çox iş görmədiklərinə görə Avropa müttəfiqlərindən dəfələrlə narazılığını bildirib, eyni zamanda, Rusiya-Ukrayna münaqişəsini Vaşinqtonun deyil, Avropanın problemi adlandırıb.

Nəticədə, NATO-nun baş katibi Mark Rüttenin təkidi ilə təşkilatın əsas üzvləri Fransa, Almaniya və Böyük Britaniya da daxil olmaqla bir qrup ölkə Hörmüz boğazından təhlükəsiz keçidin təmin edilməsinə töhfə verməyə hazır olduqları barədə birgə bəyanatla çıxış edib. Daha sonra bu mövqeyi dəstəkləyən ölkələrin sayı 35-ə çatıb. İki rəsminin bildirdiyinə görə, bəyanatın dərc olunmasından əvvəlki iki gün ərzində Rütte, Tramp və ABŞ dövlət katibi Marko Rubio ilə çoxsaylı telefon danışıqları aparıb.

Belə bir şəraitdə Rusiya-Ukrayna müharibəsinin sülh yolu ilə həlli real görünmür. Ən azı ABŞ-ın ziddiyyətli mövqeyi bunu deməyə əsas verir.

*N.BAYRAMLI*

# ABŞ NATO-nu tərk edərsə...

## Alyansın ən böyük “söz sahibi” Türkiyə olacaq?

Donald Trampın hakimiyyətə gəlişi ilə ABŞ-ın siyasi gündəliyinə daxil olan “NATO-dan çıxma” hədəfi yenidən gündəmə gəlib. Artıq iki ildir ki, bu istiqamətdə aparılan müzakirələr yeni bir mərhələyə qədəm qoyub. Rəsmi Vaşinqton Alyansın maliyyələşməsindəki “yükü” ABŞ üçün əlavə vəsait sayır. Rəsmi strukturların bəziləri isə prezident administrasiyasının bu fikri ilə razı deyil. Trampın Şimali Atlantika Alyansına qarşı tənqidlərinə baxmayaraq, ABŞ hələ də NATO-dakı iştirakını azaltmaq istiqamətində heç bir konkret addım atmayıb. “Politico” yazır ki, administrasiya ABŞ-ın NATO-dan çıxması üçün tələb olunan müzakirələrə başlamayıb. Mənbələrə görə, “ABŞ NATO daxilində belə müzakirələrə başlamayıb” və Vaşinqtonun ittifaqdakı rolunun azaldılması ilə bağlı “heç bir konkret göstəriş verməyib”. Materialda aydınlaşdırılır ki, ABŞ administrasiyası Amerika qanunvericilərinə ittifaqdakı iştirakını azaltmaq ehtimalı barədə məlumat verməyib. Bu ehtimal Pentaqonda da mahiyyətcə müzakirə olunmur.

**Senat nə deyir?**

Qeyd edək ki, qanunverici orqan da bu fikirlə razı deyil - hətta Senatın bu məsələni qəti şəkildə rədd etdiyi də məlumdur. Xatırladaq ki, ötən ilin dekabrında Respublikaçıları təmsil edən konqresmen Tomas Massi ABŞ-ın Şimali Atlantika Alyansından çıxmasını nəzərdə tutan HR 6508 qanun layihəsini (“NATO Qanunu”) Nümayəndələr Palatasına təqdim etmişdi. Bildirilirdi ki, “NATO Soyuq müharibənin qalığıdır. Biz NATO-dan çıxmalı və bu pulu sosialist ölkələrini deyil, öz ölkəmizi müdafiə etmək üçün istifadə etməliyik. Bu ittifaq 30 il əvvəl dağılan Sovet İttifaqına qarşı durmaq üçün yaradılıb. Blokda iştirak Amerika vergi ödəyicilərinə trilyonlarla dollara başa gəlib və ABŞ-ın xarici münaqişələrdə iştirakı riskini yaratmağa davam edir. Varlı ölkələr öz müdafiə xərclərini ödəməkdən imtina etdikdə, Amerika dünya üçün “təhlükəsizlik yorğanı” olmamalıdır”. Amma qanun layihəsi qəbul olunmadı. Senatın Demokrat Azlıq Lideri Çak Şumer “X” hesabında bildirib ki, ABŞ Prezidenti Donald Tramp qərar versə belə, ABŞ Senatı ölkənin NATO-dan çıxmasını cəhdini dəstəkləməyəcək. “Mən bunu vəd edə bilərəm: Senat NATO-dan çıxmaq və müttəfiqlərimizdən imtina etmək üçün səs verməyəcək. Dövlət katibi Marko Rubioya 2023-cü ildə Senatın üçdə iki səsini tələb edən qanun layihəsi hazırladığına görə təşəkkür edirəm”.

Qeyd edək ki, Şumer Amerika liderlərinə qanunvericilik təsdiqi olmadan ABŞ-ı Şimali Atlantika Alyansından çıxarmağı qadağan edən qanunu nəzərdə tutur. 2023-cü ilin dekabrında bu sənəd Nümayəndələr Palatası və Senat tərəfindən qəbul edildikdən və daha sonra ovaxtkı ABŞ prezidenti Demokrat Co Bayden tərəfindən imzalandıqdan sonra qanuna çevrilib. Senatda təqdim edilən qanun layihəsi Respublikaçı Marko Rubio və Demokrat Tim Keyn tərəfindən irəli sürülmüşdü. Onların təşəbbüsündə ABŞ-ın NATO-dan çıxmasının yalnız Senatın üçdə ikisinin dəstəyi ilə və ya qanun layihəsi Konqresin hər iki palatasından keçib dövlət başçısı tərəfindən imzalandığı təqdirdə həyata keçirilə biləcəyi nəzərdə tutulur.

**“Kağız pələng”...**

ABŞ liderinin yenidən “NATO məsələsi”nə müraciət etməsi isə müttəfiqlərinin Yaxın Şərq münaqişəsinə münasibətindən qaynaqlanır. Xatırladaq ki, bütün Aİ ölkələri ABŞ tərəfində İrana qarşı hərbi əməliyyatlarda iştirakdan imtina edib. Buna cavab olaraq, hazırkı ABŞ lideri Avropa müttəfiqlərini qorxaq adlandırıb və “bunu xatırlayacağına” söz verib. O, həmçinin NATO-nu tənqid edərək, alyansı “kağız pələng” adlandırıb. Aprelin 1-də “Reuters”də dərc olunan müsahibədə Tramp NATO-dan ikrahını bildirib və ABŞ-ı alyansdan çıxarmağı düşündüyünü deyib. “The Daily Telegraph”a verdiyi müsahibədə o, ABŞ-ın NATO-dakı iştirakını yenidən nəzərdən keçirməyi düşündüyünü qeyd edib, çünki alyans İranla müharibədə Vaşinqtonu dəstəkləməyib.



Qeyd edək ki, ABŞ NATO-ya “daxil olan” ölkə deyil - o, təşkilatın yaradıcı və əsas üzvlərindən biridir. NATO Şimali Atlantika Müqaviləsinin imzalanması ilə 1949-cu ildə yaradılıb. ABŞ həmin müqaviləni imzalayan 12 ilkin ölkədən biri olub. Başqa sözlə, ABŞ NATO-nun qurulmasında lider rol oynayıb. NATO-nun yaranma səbəblərinə gəldikdə isə, məqsəd II Dünya müharibəsindən sonra Avropanın təhlükəsizliyini qorumaq olub:

- Sovet İttifaqı təsirinə qarşı kollektiv müdafiə sistemi qurmaq;

-Üzv ölkələr arasında hərbi və siyasi əməkdaşlığı gücləndirmək.

NATO-nun məşhur Maddə 5 prinsipinə görə, bir üzvə hücum hamısına hücum sayılır. Bu mənada, ABŞ hazırda onunla bərabər Yaxın Şərq müharibəsinə “qol qoymayan” Avropa dövlətlərinin hərəkətlərini düzgün saymır.

**Ən böyük təchizatçı...**

Hazırda Qərb mediasının müzakirə etdiyi əsas məsələlərdən biri də NATO-nun ABŞ olmadan dağıla bilmə ehtimalıdır. Qeyd edək ki, ABŞ dolayısı ilə maliyyələşmə məsələsini bəhanə edərək öz arqumentlərini NATO-ya qarşı irəli sürür. Əslində, bu, həqiqətdir - belə ki, bütün ittifaq üzvləri arasında hərbi personalın saxlanması, silah tədarükünə və müdafiə infrastrukturuna ən çox məbləği ABŞ xərcləyir. 2025-ci il etibarilə ABŞ-ın NATO büdcəsindəki payı təxminən 16 faiz faiz təşkil edir və alyansa ildə bir trilyon dollardan bir qədər az maliyyə transşı ayırır. Bu, hətta NATO-da ikinci ən böyük hərbi xərc payına sahib olan Almaniyadan 10 dəfə çoxdur.

**Şimal Alyansı, yoxsa “Dördüncü Reyx”...**

Belə olan təqdirdə sual meydana çıxır - NATO ABŞ üçün nə qədər vacibdir? NATO-nun ABŞ üçün əhəmiyyət dərəcəsini müəyyən edən üç aspekt var:

- Hərbi güc baxımından: NATO hərbi ittifaq kimi Amerika qitəsində Vaşinqton üçün elə də böyük rola malik deyil. 2025-ci ilin statistikasına görə, ABŞ ordusu dünyada ən güclüdür. ABŞ-a ən yaxın NATO üzvü ordusu Britaniya və Türkiyə Silahlı Qüvvələridir ki, onlar da ilk onluqda təmsil olunurlar;

- ABŞ-ın iştirak etdiyi dünya miqyasında hərbi əməliyyatlar zamanı NATO əlavə resurslar təmin etməkdə daha böyük rol oynayır. Avrasiya qitəsində xüsusi əməliyyatlar üçün resurslar təmin etməklə yanaşı, NATO ABŞ-ın Avropaya qarşı təsir gücüdür.

- İttifaq 75 ildən çoxdur mövcud olduğu müddətdə potensial təhdidlərə qarşı effektiv şəkildə qalxan rolunu oynayıb. NATO ölkələri həm də Amerika silahlarının ən böyük alıcılarıdır.

Qərbli politoloqların fikrincə, NATO təkcə Rusiyanı cilovlamaq üçün bir vasitə deyil, həm də ABŞ-ın Avropa üzərində nəzarəti, Avropadan maliyyə resurslarını Amerika hərbi-sənaye kompleksinə ötürmək üçün bir vasitədir. Bu mənada, Tramp həqiqətən istəsə belə, dövlət strukturu ABŞ-ı NATO-dan çıxarmağa icazə verməz. Onların qiymətləndirməsinə görə, ABŞ NATO-dan çıxsa belə, təşkilat dağılmayacaq. Lakin çox güman ki, o, fundamental dəyişikliklərə məruz qalacaq və başqa bir ölkə liderlik rolunu öz üzərinə götürməyə tələsəcək - avropalı siyasət adamlarının düşüncəsinə görə, ABŞ-sız NATO sanki “Dördüncü Reyx” olacaq. Almaniya, çox güman ki, orada təsirini sürətlə artıracaq və Avropanın iqtisadi mərkəzi olduğundan, şübhəsiz ki, hərbi təsirini də oturuşdura biləcək. Çünki ABŞ indiyə qədər Almaniyanın nüvə silahı əldə etməsinin qarşısını alan yeganə ölkədir. Aydındır ki, Vaşinqtonun nəzarəti olmadan Berlin daha asan şəkildə nüvə silahı əldə edə bilər. Təbii ki, bunlar yalnız gümanlardır - əsas dəmir məntiq isə onu deyir ki, nəinki ABŞ, NATO-nun heç bir üzvü təşkilatı tərk etmək fikrində deyil.

**Mexanizm var...**

32 üzvü olan NATO-dan indiyə qədər heç bir ölkə tam çıxmayıb. Baxmayaraq ki, bunu etmək üçün mexanizm mövcuddur - NATO Nizamnaməsinin 13-cü maddəsi. Hərbi müqavilədən çıxmaq, xüsusən də ABŞ üçün nisbətən daha asandır - çünki o, depozitar ölkə, yəni müqavilənin icrasının həvalə edildiyi tərəf hesab olunur. NATO-dan çıxmaq üçün ABŞ hökuməti bir il öncədən bildiriş göndərməlidir - digər üzv ölkələrin hökumətləri isə məlumatlandırılmalıdır. Bir ildən sonra ölkə ittifaqdan çıxmış hesab olunur.

**ABŞ-sız NATO...**

ABŞ-ın çıxması ilə NATO-da nələr baş verəcək:

- NATO qoşunlarının sayı təxminən 200.000 nəfər azalacaq;

-Alyans ABŞ tərəfindən idarə olunan hava xəbərdarlıq və idarəetmə sistemlərini itirəcək;

-NATO kəşfiyyat toplama və döyüş meydanı müşahidə imkanlarının əhəmiyyətli bir hissəsini itirəcək;

-NATO qüvvələri ABŞ-ın logistik dəstəyindən məhrum olacaq;

-NATO inteqrasiya olunmuş hava hücumundan müdafiə sistemi olmadan fəaliyyətini davam etdirəcək.

Bəli, itkilər böyük olsa da, ABŞ-sız NATO dağılmayacaq. Amma strateji gücünü itirəcək. NATO-ya üzv ölkələrin kifayət qədər böyük silahlı qüvvələri var və bəzi üzv dövlətləri son zamanlar onları qururlar.

**Yeni lider: TÜRKİYƏ...**

ABŞ NATO-dan çıxacağı təqdirdə isə liderliyi ən yaxın müttəfiqlərindən olan Türkiyəyə həvalə edəcək. Bəllidir ki, müdafiə sənayesində son illərdə yüksək inkişaf tempi əldə etmiş Ankara NATO-nun ikinci ən böyük ordusudur - 400.000-dən çox aktiv xidmət əsgəri ilə ABŞ-dan sonra ikinci yerdədir. Paralel olaraq Türkiyə PUA bazarında müttəfiqlər arasında fərqlənir. Ölkədə 3500-dən çox müdafiə şirkəti fəaliyyət göstərir. Digər 29 Avropa müttəfiq ölkəsində isə bu rəqəm təxminən 2800-ə çatır. Türkiyə istehsalı olan zərbə pilotsuz uçuş aparatlarının (PUA) hərbi uğuru qlobal bazarın diqqətini cəlb edib. Müharibənin gedişatını dəyişdirmək qabiliyyəti ilə tanınan PUA sektoru ilə Türkiyə qlobal PUA bazarının təxminən 65 faizinə nəzarət edərək qlobal tanınma qazanıb. Türkiyə 2020-ci ildən 2024-cü ilə qədər müdafiə ixracında qlobal miqyasda 11-ci yeri tutub. 74 illik üzvlüyü dövründə Türkiyə, strateji mövqeyi sayəsində, xüsusilə terrorizmə qarşı mübarizədə təhdid və riskləri birbaşa həll edən ilk müttəfiq olaraq NATO-ya mühüm töhfə verib. NATO büdcəsinə töhfəsinə görə isə 32 müttəfiq arasında yeddinci yerdədir və 2030-cu ilə qədər bu rəqəmin 620 milyon avroya çatacağı gözlənilir. 4 iyul 2025-ci ildən etibarən Türkiyə Müttəfiq Cavab Qüvvələri, Suda-Qəza Qüvvələri Komandanlığı rəhbərliyini öz üzərinə götürüb. Türkiyə NATO-nun cənub-şərq cinahındakı mühüm roluna əlavə olaraq, Alyansın Qara dənizə, Yaxın Şərqə və Şərqi Aralıq dənizinə çıxışını asanlaşdırır ki, bu da strateji dəyər deməkdir.

Alyansın ümumi gücünə gəldikdə isə, NATO-nun təyyarədaşıyan gəmiləri, bombardmançı təyyarələri, qırıcı təyyarələri, kruiz raketləri və sualtı qayıqları var - Böyük Britaniya və Fransa isə nüvə silahlarına malikdir. NATO, ehtimal ki, ABŞ olmadan da yaşayacaq, çünki kollektiv müdafiə ideyası hərbi-siyasi blokun üzv dövlətləri üçün cəlbedici olaraq qalır.

**P.İSMAYILOV**

# ABŞ İrana qarşı əməliyyatda məqsədlərinə çatırmı?

## Tehran Ağ Ev rəhbərinin iddialarını təkzib edir

ABŞ-la İsrailin İrana qarşı müharibəsi bir aydan artıqdır ki, davam edir. Fevralın 28-də İrana qarşı hərbi əməliyyatlara başlayan ABŞ və İsrail İranın böyük şəhərlərinə aviazərbələr endirir. İran ordusu isə buna cavab olaraq Bəhreyn, İordaniya, İraq, Qətər, Küveyt, BƏƏ və Səudiyyə Ərəbistanındakı ABŞ hərbi obyektlərinə, İsrailə raket və dron hücumları həyata keçirir. Tehran, eyni zamanda, Hörmüz boğazını ABŞ və İsrail, həmçinin İrana qarşı təcavüzü dəstəkləyən ölkələrin gəmiləri üçün bağlayıb.

### Tramp: İranı Daş dövrünə qaytarmağa çalışacağıq

Münaqişənin sonlandırılması üçün bir sıra ölkələr təşəbbüs göstərsələr də, hələ konkret nəticə yoxdur. ABŞ Prezidenti Donald Tramp bir neçə dəfə İranın danışıqlar təklif etdiyini desə də, Tehran bunu təkzib edib. Tramp özünün sosial media hesabında yazıb ki, “İranın yeni Prezidenti, sələflərindən daha az radikallaşmış və daha ağıllı olan bu şəxs, Amerika Birləşmiş Ştatlarından atəşkəs istəyib. Biz bunu Hörmüz boğazı açıq, azad və təmiz olanda nəzərdən keçirəcəyik. O vaxta qədər İranı məhv etməyə və ya, necə deyərlər, Daş dövrünə qaytarmağa çalışacağıq”.

Donald Tramp xalqa müraciətində isə deyib ki, ABŞ İrana qarşı əməliyyatda əsas məqsədlərinə çatmaq üzrədir. Onun sözlərinə görə, Amerika ordusu İrana qarşı əməliyyatda “son dərəcə yaxşı nəticə göstərib”. ABŞ yaxın iki-üç həftə ərzində İrana qarşı zərbələri gücləndirəcək. Tramp İranın dəniz və hava qüvvələrinin məhv edildiyini və raket potensialının tezliklə minimuma endiriləcəyini iddia edib.

Ağ Ev rəhbəri onu da qeyd edib ki, ABŞ İranın razılığa gəlmədiyi təqdirdə onun elektrik stansiyalarını və neft infrastrukturunu məhv etməyə hazırdır: “İran artıq ABŞ üçün real təhlükə olmaqdan çıxıb”. Donald Tramp xalqa müraciətində İranla münaqişə bitdikdən sonra Hörmüz boğazında gəmiçiliyin tam bərpa olunacağını bəyan edib. Onun sözlərinə görə, Birləşmiş Ştatların Hörmüz boğazına ehtiyacı yoxdur və regionda gəmiçiliyin bərpası ilə buradan neft tədarük edən ölkələr məşğul olmalıdırlar.



### İran XİN: ABŞ-la heç bir danışıqlar aparılmır

Rəsmi Tehran isə ABŞ-la danışıqlar aparılması barədə deyilənləri təkzib edib. İran Xarici İşlər Nazirliyinin nümayəndəsi İsmail Bəqayinin sözlərinə görə, Tehran münaqişənin həlli ilə bağlı “həddindən artıq sərt və məntiqsiz” tələbləri ehtiva edən təkliflər alıb: “Aldığımız mesajlar həddindən artıq sərt və məntiqsiz tələbləri ehtiva edir. Buna görə də iranlılar onlara xüsusilə ehtiyatlı yanaşırlar”. XİN nümayəndəsi vurğulayıb ki, hazırda İran və ABŞ arasında heç bir danışıqlar aparılmır.

İran Hörmüz boğazından istifadəyə gəlincə, Tehran Avropa, Asiya və ərəb ölkələri ilə müqavilələr bağlamağa hazırdır. Bu barədə İran hökuməti nəzdində fəaliyyət göstərən İnformasiya Şurasının rəhbəri Elias Həzrəti deyib. “İran Hörmüz boğazı üzərində tam nəzarətə malikdir. Bu məsələ ilə bağlı razılaşma əldə edə bilərik. Boğazdan istifadə etmək istəyən Avropa, Asiya və ərəb ölkələrini bizimlə saziş imzalamağa dəvət edəcəyik”, - deyə o, İranın dövlət televiziyasında bildirib.

### “Daha qətiyyətli və dağıdıcı hərəkətlər gözləyin”

Trampın təhdidlərinə gəlincə, bunu İran Silahlı Qüvvələrinin Baş Qərargahının nümayəndəsi Ebrahim Zülfüqari bəyan edib ki, İran ABŞ və İsrailə qarşı fəaliyyətlərini əhəmiyyətli dərəcədə genişləndirəcək və intensivləşdirəcək. “Daha qətiyyətli, genişmiqyaslı və dağıdıcı hərəkətlər gözləyin”, - deyə o, müharibənin düşmənin tam alçaldılmasına qədər davam edəcəyini əlavə edib. Onun sözlərinə görə, ABŞ və İsrailin İranın sahib olduğu hərbi güc və texnika barədə natamam təsəvvürü var: “Düşünməyin ki, siz bizim strateji raket istehsalı mərkəzlərimizi, uzaqmənzilli və yüksək dəqiqlikli hücum pilotsuz uçuş aparatlarımızı, müasir hava hücumundan müdafiə və radioelektron mübarizə sistemlərimizi və ya xüsusi avadanlıqlarımızı məhv etmisiniz”.

Yeri gəlmişkən, “CBS News” televiziyasının adı açıqlanmayan bir ABŞ rəsmisinə istinadla yaydığı məlumata görə, ABŞ hərbi qüvvələri İranın mərkəzində yerləşən İsfahan yaxınlığında daha iki “MQ-9 Reaper” tipli pilotsuz uçuş aparatını (PUA) itirib. Bununla da ABŞ və İsrailin İrana qarşı başladığı hərbi əməliyyatlar dövründə itirilən bu tip aparatların ümumi sayı 16-ya çatıb. Bildirilib ki, “MQ-9 Reaper” pilotsuz uçuş aparatları əsasən kəşfiyyat, müşahidə və məlumat toplama məqsədilə istifadə olunur, eyni zamanda dəqiq zərbələr endirmək imkanına malikdir. Məlumata görə, bu aparatların müasir hava hücumundan müdafiə sistemlərinə malik ölkələrdə daha asan hədəfə çevrildiyi qeyd olunur. Onların maksimal sürəti saatda təxminən 300 mil təşkil edir ki, bu da 1200-1900 mil/saat sürətə çatan döyüş təyyarələri ilə müqayisədə xeyli aşağıdır.

Qeyd olunub ki, “MQ-9 Reaper” tipli bir pilotsuz aparatın dəyəri növündən asılı olaraq 30 milyon ABŞ dollarından artıq ola bilər. Eyni zamanda, İran dövlət mediası ölkənin İslam İnqilabı Keşikçiləri Korpusuna istinadən İsfahan üzərində ABŞ-a məxsus “MQ-9” pilotsuz aparatının vurulduğunu iddia edib.

**N.BAYRAMLI**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**
"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744
**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





# Keçmişdən gələcəyə...

## Qloballaşma dövründə milli kimlik və ənənələrimizin qorunması

*Yeganə BAYRAMOVA*

Bir xalqın kimliyini formalaşdıran, onun keçmişini gələcəyə bağlayan ən möhkəm sütunlardan biri dövlətçilik tarixi, milli adət-ənənələr, elm və mədəniyyətdir. Bu dəyərlər yalnız tarix kitablarının səhifələrində qalmır, onlar hər bir insanın gündəlik həyatında, düşüncəsində və davranışında yaşayır. Dövlətçilik tarixi xalqın mübarizə ruhunun, müstəqillik arzularının və siyasi iradəsinin təcəssümüdür. Keçmişdə qurulan dövlətlər, qazanılan qələbələr və qarşılaşılan çətinliklər bu günümüzün formalaşmasında mühüm rol oynayır. Tarixi bilmək yalnız keçmişi öyrənmək deyil, həm də gələcək üçün düzgün istiqamət seçməkdir. Çünki tarixini unudan xalq, yolunu itirə bilər.

Milli adət-ənənələr isə xalqın mənəvi xəzinəsidir. Toy mərasimlərindən bayramlara, gündəlik davranış qaydalarından ailə dəyərlərinə qədər hər bir ənənə nəsildən-nəslə ötürülərək milli kimliyi qoruyur. Bu adətlər bizi bir-birimizə bağlayır, ortaq yaddaş yaradır və cəmiyyət daxilində həmrəylik hissini gücləndirir. Müasir dövrdə qloballaşmanın təsiri artsa da, milli ənənələrin qorunması hər zamankından daha vacibdir.

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən sosioloq Üzeyir Şəfiyev bildirib ki, cəmiyyət həm qlobal mədəniyyətin müsbət tərəflərindən faydalanmalı, həm də öz milli-mədəni irsini qoruyub saxlamalıdır: "Bu proses "qlokalizasiya" adlandırılır, yəni qlobal təsirlərin yerli xüsusiyyətlərlə uyğunlaşdırılması.

Tarixi inkişaf prosesində formalaşan dövlətçilik ənənəsi əslində, insanların birgə yaşamaq, resursları bölüşmək və sosial nizam yaratmaq ehtiyacının institusional ifadəsidir. Bu baxımdan dövlətçilik tarixi xalqın sosial yaddaşının ayrılmaz hissəsi kimi çıxış edir və nəsildən-nəslə ötürülərək kollektiv kimliyin əsas dayaqlarından birinə çevrilir.

Adət-ənənələr isə bu prosesdə qeyri-rəsmi, lakin olduqca güclü sosial tənzimləyici rolunu oynayır. Onlar yazılı qanunlardan fərqli olaraq daha çevik və gündəlik həyatın içində formalaşan davranış modelləridir. Ailə münasibətləri, qonaqpərvərlik, sosial etik normalar və müxtəlif mərasimlər kimi elementlər cəmiyyət daxilində həmrəyliyi gücləndirir, fərdlər arasında qarşılıqlı etimad yaradır və sosial əlaqələrin davamlılığını təmin edir. Sosioloji nöqteyi-nəzərdən bu cür ənənələr sosial kapitalın mühüm komponenti hesab olunur, çünki onlar fərdlər arasında görünməz bağlar yaradır və kollektiv fəaliyyət üçün zəmin formalaşdırır".

Ü.Şəfiyev qeyd edib ki, müasir dövrdə qloballaşma və sürətli sosial dəyişikliklər fonunda adət-ənənələrin qorunması məsələsi daha da aktuallaşır: "Çünki qlobal mədəni təsirlər bir tərəfdən yeni imkanlar açsa da, digər tərəfdən lokal kimliklərin zəifləməsi riskini yaradır. Əgər cəmiyyət öz tarixi yaddaşını və mədəni kodlarını qoruyub saxlamazsa, bu zaman sosial dezinteqrasiya, kimlik böhranı və dəyərlər sistemində parçalanma kimi proseslər baş verə bilər. Buna görə də adət-ənənələrin qorunması yalnız keçmişə nostalji yanaşma deyil, həm də sosial sabitliyin və davamlı inkişafın təmin edilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Bir məqamı da xüsusi vurğulamaq lazımdır ki, ənənələrin qorunması onların dəyişməz şəkildə saxlanılması demək deyil. Əksinə, hər bir cəmiyyət öz ənənələrini zamanın tələblərinə uyğun şəkildə yenidən şərh edir və transformasiya edir. Bu adaptasiya prosesi həm dövlətçilik institutlarının möhkəmlənməsinə, həm də milli kimliyin dinamik şəkildə inkişafına şərait yaradır. Beləliklə, dövlətçilik tariximiz və adət-ənənələrimiz birlikdə cəmiyyətin sosial dayanıqlığını təmin edən əsas mexanizmlərdən biri kimi çıxış edir və onların qorunması gələcək nəsillərin həm kimlik, həm də sosial inteqrasiya baxımından sağlam inkişafı üçün vacib şərt kimi dəyərləndirilməlidir".

Sosioloq sonda vurğulayıb ki, milli ənənələrin qorunması sadəcə keçmişə bağlılıq deyil, həm də gələcək nəsillər üçün sosial sabitliyin və mədəni müxtəlifliyin təmin olunması deməkdir: "Qloballaşma şəraitində öz kimliyini qoruyub saxlaya bilən cəmiyyətlər daha dayanıqlı və özünəinamlı inkişaf yolu seçə bilirlər".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti üzrə hazırlanmışdır**

# Nəticələri həyəcanla gözləyənlər...

## Keçid balları aşağı salınacaq?

*Yeganə BAYRAMOVA*

Martın 9-da və 15-də Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən (11 illik) orta təhsil səviyyəsi üzrə imtahan verən abituriyentlər cavabları həyəcanla gözləyirlər. DİM-dən verilən məlumata görə, nəticələr imtahanın keçirildiyi tarixdən sonra 7 həftə ərzində elan olunacaq. Xatırladaq ki, imtahandan artıq 3 həftə keçib. Deməli, nəticələr növbəti 1 ay ərzində elan olunacaq.

Qeyd edək ki, imtahanda iştirak edən şagirdlər və onların valideynləri sualların çətin olması, həmçinin tədris proqramına uyğun olmaması ilə bağlı narazılıqlarını bildirmişdilər. Son günlər isə keçid ballarının aşağı düşəcəyi ehtimal olunur. Xüsusilə də, balların ötən illərlə müqayisədə nisbətən aşağı olması bu ehtimalı gündəmə gətirib.

**İmtahan nəticələri məlum olmadan...**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən təhsil üzrə ekspert Elçin Əfəndi bildirib ki, 11-ci sinif şagirdləri buraxılış imtahanını verərək, qəbul prosesinin ilk mərhələsini geridə qoyublar. Onun sözlərinə görə, qarşıda abituriyentləri ali məktəblərə qəbul üçün əsas mərhələ sayılan blok imtahanları gözləyir: "Buraxılış imtahanlarında sualların çətinliyi ilə bağlı müxtəlif fikirlər səslənir. Lakin hələ imtahan nəticələri məlum olmadan ümumi vəziyyətin hansı formada olduğunu demək mümkün deyil. Ola bilər ki, iştirakçıların müəyyən bir qisminə suallar çətin görünsün, amma elə abituriyentlər də var ki, onlar daha uğurlu nəticələr əldə edə bilərlər".

Ekspert qeyd edib ki, ən doğru yanaşma nəticələri gözləməkdir: "Yalnız nəticələr açıqlanandan sonra aparılan təhlillər zamanı bu ilin buraxılış imtahanlarının göstəricisi ilə ötən ilin buraxılış imtahanlarının median göstəricisini müqayisə etmək mümkün olacaq. Əgər bu il median bal ötən illə müqayisədə aşağı olarsa, bu, keçid ballarına müəyyən təsir göstərə bilər. Əgər nəticələr ötən illə eyni səviyyədə və ya daha yüksək olarsa, demək ki, keçid ballarında ciddi dəyişiklik baş verməyəcək. Hazırkı vəziyyətdə iştirakçı sayı kifayət qədər çoxdur və bu da rəqabətin yüksək olacağını göstərir. Rəqabət yüksək olduğu halda isə hər hansı ixtisas üzrə keçid ballarının enəcəyini indidən demək mümkün deyil".



**Bu halda keçid balları yüksələ bilər**

Təhsil eksperti Səbuhi Abdullayev buraxılış imtahanlarında sualların çətin və ya asan olmasının hər il müzakirə olunan məsələlərdən biri olduğunu vurğulayıb: "Lakin qəbul ballarının artıb-artmayacağı yalnız sualların səviyyəsi ilə izah etmək doğru olmaz. Çünki qəbul balları təkcə imtahanın çətinliyindən deyil, ümumi nəticələrdən, iştirakçıların performansından və ixtisaslar üzrə rəqabətin səviyyəsindən asılı olaraq formalaşır.

Əgər imtahan sualları daha çətin olarsa, bu, adətən ümumi nəticələrin aşağı düşməsinə səbəb olur və nəticədə keçid ballarında ciddi artım müşahidə edilmir. Əksinə, suallar nisbətən asan olduqda daha çox abituriyent yüksək nəticə əldə edir və bu zaman bəzi ixtisaslar üzrə rəqabət artır, nəticədə keçid ballarında yüksəliş baş verə bilər. Yəni proses nisbi qiymətləndirmə prinsipi ilə formalaşır".

**Keçid ballarına təsir edən amillər...**

Ekspert, onu da bildirib ki, qəbul ballarına təsir edən əsas amillərdən biri də konkret ixtisaslara olan maraqdır: "Bəzən imtahanın çətinliyindən asılı olmayaraq müəyyən ixtisaslara maraq çox olduqda həmin ixtisaslarda keçid balları yüksələ bilir. Buna görə də, bir və ya iki imtahanın çətinliyi əsasında əvvəlcədən dəqiq proqnoz vermək real olmaz.

Ümumilikdə, demək olar ki, buraxılış imtahanlarının nəticələri qəbul prosesinin yalnız bir hissəsidir və yekun qəbul balları bütün mərhələlərin nəticələri, eləcə də abituriyentlərin ümumi göstəriciləri əsasında formalaşır.

Ona görə də, bu mərhələdə əsas diqqət imtahanın çətin və ya asan olmasına deyil, nəticələrin ümumi statistikasına yönəldilməlidir".

*İdman*

# Azərbaycan futbolunda yeni texnologiya: AFFA ilə "Eyeball" arasında əməkdaşlıq müqaviləsi imzalanıb

AFFA ilə "Eyeball" şirkəti arasında əməkdaşlıq müqaviləsinin imzalanma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, AFFA-nın baş katibi Cahangir Fərəcullayev bu layihənin uşaq futbolçuların fərdi inkişafı üçün mühüm əhəmiyyət daşıdığını bildirib. Onun sözlərinə görə, müasir texnologiyaların tətbiqi məşq prosesinin keyfiyyətini artıracaq, gənc oyunçuların potensialının daha erkən mərhələdə üzə çıxarılmasına imkan verəcək.

C.Fərəcullayev vurğulayıb ki, gələcəkdə bu sistemin daha geniş miqyasda, yəni müxtəlif yaş qrupları və liqalar üzrə tətbiqi nəzərdə tutulur. AFFA rəsmisi növbəti iki il ərzində avropalı skautların oyunçuların məlumatlarını izləyə və azərbaycanlı futbolçuları öz komandalarına cəlb edə biləcəklərini söyləyib. Bu da öz növbəsində gənc oyunçuların Avropaya getməsi üçün önəmli şərait yaradacaq.

"Eyeball"ın direktoru Manfred Lerli bildirib ki, bu, Çempionlar Liqasının bir çox qalibləri də daxil olmaqla, 150-dən çox Avropa klubunun seçdiyi gənclər platformasıdır. O qeyd edib ki, bir neçə MLS klubu,




ABŞ-nin iri klubları, həmçinin Afrika və Yaxın Şərqin aparıcı komandaları da "Eyeball"ın müştəriləridir. Direktor AFFA-nın da bu platformaya qoşulmasının xoş məqam olduğunu deyib. M.Lerlinin sözlərinə görə, uşaq futbolunda yanvar və fevral aylarında doğulan uşaqlar, dekabrda anadan olan həmyaşıdlarından fiziki olaraq daha güclü görünürlər. O, skautların da səhvən həmin oyunçuları daha istedadlı hesab etdiyini, lakin böyük futbolda bu fərqin itdiyini və həqiqi istedadların üzə çıxdığını diqqətə çatdırıb.

Rəsmi çıxışlardan sonra əməkdaşlıq müqaviləsi imzalanıb. C.Fərəcullayev tərəfindən Manfred Lerliyə xatirə forması hədiyyə edilib.

Müqaviləyə əsasən, "Eyeball" şirkətinin müasir kamera və analiz platforması Azərbaycan futbolunda tətbiq olunacaq. Əməkdaşlıq çərçivəsində ölkə futboluna texnoloji yeniliklərin tətbiqi, oyunların daha dəqiq təhlili, həmçinin məşq proseslərinin və oyun performansının müasir metodlarla qiymətləndirilməsi nəzərdə tutulur. Yeni sistem vasitəsilə komandaların taktiki hazırlığı, oyunçu performansı və statistik göstəricilər daha detallı şəkildə analiz ediləcək.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5028**
**Sifariş: 404**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova